## Ötən illə müqayisədə özünü öldürmə cinayətində azalma var



**Ötən illə müqayisədə özünü öldürmə cinayətində azalma var.**

Bunu Baş prokuror Kamran Əliyev Baş Prokurorluğun Elmi Məsləhət Şurasının iclasında deyib.

O bildirib ki, bəzi hallarda yazılar düzgün işıqlandırılmır: "Biz bir müddət əvvəl jurnalistlərlə görüş təşkil etdik. İntihar xəbərlərin yayılmasının qarşısının alınması ilə bağlı müzakirələr apardıq. Bu, öz nəticəsini verdi. Bu ilin birinci yarımili ilə ötən ilin birinci yarımilini müqayisə etdikdə 30-50 fakt azalma qeydə alınıb. Mətbuat artıq bu xəbərlərə həssaslıq nümayiş etdirir".

## Yeni İldə ardıcıl 5 gün iş olmayacaq

**31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl bayramı ilə əlaqədar Azərbaycanda ardıcıl 5 gün iş olmayacaq.**

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və 1-2 yanvar Yeni İllə bağlı bayram günləri elan edilib.

Azərbaycanda bayram günləri və tətil Əmək Məcəlləsinə uyğun olaraq tənzimlənir.

Müvafiq olaraq, 2022-ci il 31 dekabr və 2023-cü il 1 yanvar tarixləri şənbə və bazar günlərinə təsadüf etdiyindən qanunvericiliyə əsasən iş və istirahət günlərinin yeri dəyişdiriləcək, 2023-cü il 3 və 4 yanvar tarixləri qeyri-iş günü olacaq.

*Bu hesabla, Yeni İl bayramında ardıcıl 5 gün qeyri-iş günü olacaq.*


№ 215 (5736), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 25 noyabr 2022-ci il (cümə)





## "Qara maskalı"lar Naxçıvana da ayaq basdı

Bütün ölkə üzrə "təmizləmə" prosesi başlayıb

**Dünən Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşları Naxçıvan Muxtar Respublikası Gömrük Komitəsində araşdırmalara başlayıblar.**

Qeyd edək ki, Naxçıvan gömrük rəsmilərinin milyonlarla dəyərində qaçaqmalçılıqda iştirakı və büdcə pullarının yeyintisi araşdırılır.

DTX-nin Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirdiyi əməliyyat zamanı saxlanılanların olduğu bildirilir.

(səh.4)




## Toivo Klaarın Azərbaycana səfərinin məqsədi açıqlanıb

Azərbaycan-Ermənistan normallaşma prosesi müzakirə olunacaq

**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar 25-26 noyabr tarixlərində Azərbaycan rəhbərliyi ilə yüksək səviyyəli müntəzəm məsləhətləşmələr aparmaq üçün Bakıya gəlib.**

Bu barədə APA-nın sorğusuna cavab olaraq Toivo Klaarın ofisindən bildirilib.

*Qeyd olunub ki, bu məsləhətləşmələrdə Aİ-Azərbaycan əməkdaşlığının gündəliyi və Azərbaycan-Ermənistan normallaşma prosesi müzakirə olunacaq.*

## Paşinyan KTMT-də son şansını da itirdi

Nəticəni Bakının İrəvanı öz evində məğlub etməsi kimi də qiymətləndirmək olar



**Noyabrın 23-də İrəvanda keçirilmiş Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sammiti Ermənistan üçün tam fiasko ilə nəticələndi.**

Baş nazir Nikol Paşinyan qarşısına qoyduğu heç bir məqsədə nail ola bilmədi. KTMT üzvləri aydın şəkildə göstərdilər ki, öz mövqelərində qalırlar və bu mövqedən geri çəkilməyəcəklər.

(səh.3)

# Minalar daşınır

## Ceyhun Bayramov Laçın dəhlizi ilə bağlı Ermənistana xəbərdarlıq edib





## Azərbaycan tərəfi bütün lazımi addımları atacaq

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Laçın dəhlizi ilə bağlı Ermənistana xəbərdarlıq edib. Nazir jurnalistlərə açıqlamasında Ermənistanın Laçın dəhlizindən razılaşmalara zidd formada istifadə etdiyini bildirib.**

XİN başçısı Ceyhun Bayramov deyib ki, üçtərəfli bəyanata əsasən, dəhlizin prinsipləri və istiqamətləri var: "Ancaq dəhliz buna zidd olaraq istifadə edilir. Buna son qoyulmalıdır. Azərbaycan tərəfi bütün lazımi addımları atacaq. Bununla bağlı həm beynəlxalq müstəvidə, həm də digər tərəfdaşlarla danışıqlarımız davam edəcək".

Ceyhun Bayramov qeyd edib ki, Ermənistanın üçtərəfli bəyanatla bağlı destruktiv addımları qəbuledilməzdir.

(səh.4)

## Təmir əladır, küçələr abadlaşır

Amma dərd odur ki, bir müddət sonra yenə problemlər üzə çıxır



**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Bakının Xətai rayonunun Cavanşir küçəsini əsaslı təmir edib.**

Bu barədə Agentlik məlumat yayıb. Məlumata görə, 1 400 metr uzunluğa malik sözügedən küçənin təmir işləri çərçivəsində küçəboyu frezlənmə işləri aparılıb, mövcud piyada səkiləri bərpa olunub, zəruri yerlərdə yeniləri inşa edilib.

Küçə boyu 2 800 p/m yeni bordür, 762 p/m yeni səki daşı düzülüb. Daha sonra küçəyə iki qat olmaqla yeni asfalt-beton örtüyü döşənib, kommunikasiya xətlərinə aid quyu qapaqları layihə hündürlüyünə qaldırılıb və zəruri olan yerlərdə yeni yağış barmaqlıqları quraşdırılıb.

(səh.7)



## Son dörd ayda Kəlbəcər və Laçında 1000-dən çox mina aşkar edilib

**Azərbaycan-Ermənistan arasında sərhədin Kəlbəcər və Laçın sahəsində 1119, Qarabağ iqtisadi rayonu ərazisində isə 1609 ədəd 2021-ci il Ermənistan istehsalı minalar (ümumilikdə 2728) aşkarlanaraq zərərsizləşdirilib.**

Bu barədə Xarici İşlər Nazirliyinin Azərbaycan ərazilərində Ermənistan istehsalı yeni minaların aşkarlanması və davam edən mina təhdidi barədə bugünkü açıqlamasında deyilir.

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən məlumat verildiyi kimi, Sarıbaba yüksəkliyinin şimal istiqamətində Azərbaycan ərazilərindən hələ də çıxarılmamış erməni silahlı dəstələri tərəfindən basdırılmış 2021-ci il Ermənistan istehsalı 350 ədəd PMN-G tipli piyada əleyhinə minalar aşkarlanıb", - deyə məlumatda bildirilir.

## Vəfat edən olmayıb

45 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 45 yeni yoluxma faktı qeydə alınıb, 44 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 824 127 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 813 872 nəfər müalicə olunaraq sağalıb, 9 975 nəfər vəfat edib, aktiv xəstə sayı 280 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 043, hazırkı dövrədək isə 7 365 617 test aparılıb.*

## Ağdamda 5 yaşlı qızı ilə birgə axtarılan qadın ailə qurmaq üçün evdən gedib



**Ağdamda 5 yaşlı övladı ilə birgə itkin düşdüyü bildirilən 25 yaşlı qadın ailə həyatı qurmaq üçün evdən gedib.**

Bu barədə APA-ya polis vasitəsilə axtarışa verilən Təhminə Ağayeva özü məlumat verib. Təhminə Ağayevanın sözlərinə görə, onun evdən getməsindən ailəsi məlumatlıdır: "İki il əvvəl birinci həyat yoldaşımdan ayrılmışam. 5-6 gün əvvəl isə yeni münasibət qurduğum şəxslə birgə evdən çıxmışam. Atamın, qardaşımın da bundan xəbəri var. Mən itkin deyiləm, hazırda sevdiyim şəxslə birgə xoşbəxt ailə həyatı yaşayıram".

*Qeyd edək ki, Ağdam rayonu, Mirəşelli kənd sakini, 1997-ci il təvəllüdlü Təhminə Ağayevanın 5 yaşlı qızı ilə birgə itkin düşməsi barədə polisə məlumat daxil olmuşdu.*



## Qızıl tarazlığı qorumaq lazımdır

Hökumət mümkün qədər çalışmalıdır ki, əhali inflyasiyanın zərərçəkəninə çevrilməsin

(səh.5)



## Nazir təhsil sistemindən çox məlumatsızdır

Heç də bütün ibtidai sinif müəllimləri yüksək maaş almır

(səh.4)



# Bakıya güvən sonsuzdur

## Azərbaycan ən yaxşı halda Kosovo ilə Serbiya arasında vasitəçilik missiyasını təqdim edə bilər

**Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya işgüzar səfəri çərçivəsində iki ölkə arasında mühüm sənədlərə imza atılıb. Bununla yanaşı, Azərbaycan-Serbiya arasında "Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum" da imzalanıb. Serbiya ilə Azərbaycan arasında münasibətlər hər zaman yaxşı olub. Rəsmi Bakı Belqradın ən çətin günlərində belə dəstəyini hiss etdirib.**

Hətta Bakı koronavirusla mübarizə üçün Belqrada bir neçə dəfə humanitar yardım da göndərib. Bundan əlavə, Azərbaycan Kosovonun müstəqilliyini bu günə qədər tanımır və dəfələrlə Serbiyanın suverenliyinə, ərazi bütövlüyünə birmənalı dəstəyini bəyan edib. Rəsmi Bakı ilə Belqrad arasında münasibətlər bu gün də yüksək səviyyədədir. Təsadüfi deyil ki, ölkə başçısı Prezident İlham Əliyev həm Prezident Aleksandar Vuçiç ilə, həm də Baş nazir Ana Brnabiç ilə təkbətək görüş zamanı "Serbiyanı Avropada özümüzün ən yaxşı dostlarımızdan biri hesab edirik" deyib.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, iki ölkə arasında münasibətlər yüksək səviyyədə inkişaf etməkdədir. Ekspertə görə, Serbiya ilə ticarət dövriyyəmiz son 4 ildə 2 dəfəyə yaxın artaraq 9.2 milyon dollara yüksəlib:** "Mövcud ticarət dövriyyəsinin daha da artırılması nəzərdə tutulub. Bundan başqa, Serbiya Azərbaycan ilə qaz nəqli sahəsində də əməkdaşlıqda maraqlıdır. Rəsmi Belqrad digər Balkan ölkələri - Yunanıstan, Albaniya, Bolqarıstan, hətta Şimali Makedoniyanın Azərbaycandan daha sərfəli və keyfiyyətli qaz almasının fərqindədir. Yunanıstan-Bolqarıstan interkonnektoru istifadəyə verildikdən sonra Serbiyanın da Azərbaycan qazını idxal etmək imkanları genişlənib.

Serbiyanın coğrafi mövqeyi gələcəkdə Mərkəzi və Şərqi Avropanın enerji təhlükəsizliyinin formalaşmasında ölkəmizin rolunu daha da artıra bilər: "Prezidentin Serbiyaya səfərinin ən diqqətçəkən məqamı, heç şübhəsiz, Serbiya Prezidenti Aleksandr Vuçiçin Prezident İlham Əliyevlə ikili görüş zamanı sərf etdiyi ifadələr oldu. Serbiya Prezidenti "Biz hər iki dövlət olaraq ərazi bütövlüyümüzü qorumağa çalışırıq və öz dövlətlərimizi beynəlxalq arenada təqdim edirik. Xüsusilə beynəlxalq hüquq normalarının tətbiqi ilə bağlı iş görürük" deyərkən bir müddətdir yenidən alovlanan Kosovo münaqişəsinə diqqət çəkir. Məlum olduğu kimi, Serbiya Kosovo ilə son 10 ilin ən böyük gərginliyini yaşayır. Kosovo noyabrın 21-dən etibarən ərazisinə daxil olacaq Serbiya nömrə nişanlı avtomobillərə cərimənin tətbiqi ilə bağlı qərar qəbul edib. Kosovo hakimiyyəti Daxili İşlər Nazirliyinin xüsusi təyinatlılarını serblərin yaşadığı yerlərə göndərib. Hökumət israrla serb əsilli vətəndaşlardan yeni dəyişikliklərə riayət etməyi tələb edir. Vuçiç böyük ehtimalla serb-alban silahlı toqquşmasından çəkinir və "biz Prezident İlham Əliyevdən çox şey öyrənə bilərik" sözləri ilə açıq şəkildə Azərbaycan Prezidentinə "mən nə etməliyəm" sualını ünvanlayır. Düzdür, Kosovo və keçmiş Qarabağ münaqişələri eyni olmasa da, Serbiyanın üzləşdiyi problem 44 günlük Vətən müharibəsində Azərbaycanın üzləşdiyi problemlə eynidir. Vuçiç yaxşı bilir ki, Qərb bu məsələdə Kosovoya açıq şəkildə dəstək verir. Belqrad isə proseslərin gərginləşməsində maraqlı deyil. Çünki Kosovonun təkbətək müharibədə Serbiyaya qalib gələ bilməyəcəyi kimi rəsmi Belqrad da Kosovoya hərbi müdaxilə edə bilməz".

**Analitikə görə, Kosovoda NATO-nun sülhməramlı qüvvələrinin mövcudluğu Belqradın əl-qolunu bağlayan digər bir faktordur:** "Kosovonun şimalında stabilliyə hər hansı təhlükə yaranacağı təqdirdə NATO müdaxilə etməyə hazır olduğunu bildirib. Rəsmi Bakı Kosovonun müstəqilliyini bu günə qədər tanımır və dəfələrlə Serbiyanın suverenliyinə, ərazi bütövlüyünə birmənalı dəstəyini bəyan edib. Lakin Serbiyanın müsəlman Kosovo albanlarının hüquqlarına da hörmət etdiyi bəllidir. Azərbaycan ən yaxşı halda Kosovo ilə Serbiya arasında vasitəçilik missiyasını təqdim edə, mövcud gərginliyin azalması istiqamətində diplomatik dəstək nümayiş etdirə bilər".

**İsmayıl**



## Andrey Vladimiroviç Sipilin Azərbaycan Prezidentinin köməkçisi təyin edilib

**Prezident İlham Əliyev A.V.Sipilinin Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi-texniki təminat məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamla Andrey Vladimiroviç Sipilin Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi-texniki təminat məsələləri şöbəsinin müdiri təyin edilib.

*Dövlət başçısının digər Sərəncamı ilə Andrey Vladimiroviç Sipilin Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi vəzifəsindən azad edilib.*

## Orta Dəhlizin fəaliyyətinə dair Yol Xəritəsi...

### Azərbaycan, Türkiyə və Qazaxıstan imza atacaq

**Azərbaycan, Türkiyə və Qazaxıstan torpaqlarından keçən Orta Dəhlizin inkişaf etdirilməsi və fəaliyyətə başlaması üçün "2022-2027 Yol Xəritəsi"nin imzalanması planlaşdırılır.**



APA xəbər verir ki, bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin sabah Aktau şəhərində keçiriləcək Azərbaycan-Türkiyə-Qazaxıstan xarici işlər və nəqliyyat nazirlərinin üçtərəfli görüşünə dair yaydığı məlumatda bildirilib.

*Qeyd olunub ki, bu, ilk iclasda qəbul edilən Bakı Bəyannaməsinə uyğun olaraq imzalanacaq.*

# Xovayev Bakıya və İrəvana nəticəsiz səfərlər edir

## İndi də bölgəyə ABŞ və Avropa İttifaqının nümayəndələri gələcəklər



**Noyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və iki ölkə arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesi, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata uyğun olaraq Ermənistan tərəfinin üzərinə düşən öhdəlikləri icra etməməsi, Soçidə keçirilmiş son görüş və onun nəticələri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova deyib ki, Xovayev sülh müqaviləsini müzakirə etmək məqsədi ilə İrəvana və Bakıya səfərlər edir: "Moskva Cənubi Qafqazda sülhün bərqərar olması üçün Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması üzərində işləməyə davam edəcək. Rusiya XİN-in xüsusi nümayəndəsi İqor Xovayev Bakıda səfərdədir. Sülh müqaviləsi müzakirə olunur. Xovayev artıq İrəvana səfər edib və Ermənistanın siyasi rəhbərliyi ilə bir sıra məsləhətləşmələr aparıb".

**Politoloq Elxan Şahinoğlu "Şərq"ə deyib ki, Rusiya Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev tez-tez həm Bakıya, həm də İrəvana səfər edir:** "Xovayev bundan əvvəl bölgəyə və Bakıya oktyabr ayının əvvəlində gəlmişdi. Rusiyalı diplomat həmin səfərində sülh sazişinin imzalanması məqsədilə Moskvanın Bakıya və İrəvana təkliflərini gətirmişdi. Nəticə olmadı. Liderlərin Soçi görüşü də məsələləri həll etmədi. İqor Xovayevin budəfəki səfəri də nəticəyə hesablanmayıb. Moskva sadəcə, hər dəfə Xovayevi bölgəyə göndərməklə danışıqlar təşəbbüsünü nəzarətdə saxlamağa çalışır. Ancaq Brüssel və Vaşinqton da boş dayanmayıb. İqor Xovayevdən sonra bölgəyə ABŞ və Avropa İttifaqının nümayəndələri gələcəklər".

**İsmayıl**

# İqtisadi Şuranın növbəti iclası keçirilib

## Müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib

**2022-ci il 24 noyabr tarixində Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın növbəti iclası keçirilib.**



Bu barədə Nazirlər Kabineti məlumat yayıb.

İclasın gündəliyində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdən" biri olan "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı"nın yaradılmasından çıxış edərək İnformasiya və Kommunikasiya Texnologiyaları sektorunun təşviqinə yönəlmiş qanunvericiliyə dəyişiklik layihələri, o cümlədən, elmi tədqiqat və kadr hazırlığı proqramları ilə yanaşı, texnopark, vergi, sosial müdafiə, gömrük, miqrasiya qanunvericiliyinə dəyişikliklər, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə son dəyişikliklər, monetar siyasət və banklararası bazarın inkişafı məsələləri ətraflı müzakirə olunub.

İclasda rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynovun, Mərkəzi Bankın sədri Taleh Kazımovun və "Aqrarkredit" QSC-nin İdarə Heyətinin sədri Məmməd Musayevin məruzələri dinlənilib.

Yekunda müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# İrandakı hadisələr hakimiyyətin zəifləməsi ilə nəticələnəcək

## "Əhalinin mərkəzi hakimiyyətə qarşı inamı və nifrəti artdı"

**Noyabrın 24-də BMT-nin İnsan Hüquqları Şurasının xüsusi iclası keçirilib. İclasda BMT-nin İnsan Hüquqları üzrə ali komissarı Folker Türk İranda baş verən aksiyalar barədə açıqlama verib:**



"Əldə etdiyimiz məlumata əsasən, İranda etiraz aksiyaları zamanı uşaqlar da daxil olmaqla 14 min nəfər saxlanılıb, 300-dən çox insan öldürülüb. Qətlə yetirilənlərdən 40-ı uşaqdır".

Onun sözlərinə görə, Mehsa Əmininin qətlinə etiraz olaraq sentyabrın 16-dan İranda davamlı etiraz aksiyaları keçirilir: "İranın 31 əyalətinin 150 şəhərində və 140 universitetində etiraz aksiyaları olub. Etnik azlıqların yaşadığı regionlar daha çox qurban veriblər".

Ali komissar etnik azlıqların parlamentdəki nümayəndələrinin etiraz aksiyalarını zorakılıq yolu ilə yatırdığına görə İran hakimiyyətini tənqid edib.

**İranda baş verənlərlə bağlı "Şərq"ə danışan politoloq Turab Rzayev bildirib ki, proses böyük ehtimal ilə mərkəzi hakimiyyətin zəifləməsi ilə nəticələnəcək. Çünki mərkəzi hakimiyyət bu məsələlərə maliyyə, inzibati, hərbi resurslar sərf edib:** "Rejim hakimiyyəti laxladı. Əhalinin mərkəzi hakimiyyətə qarşı inamı və nifrəti artdı. Birbaşa yaşına, cinsinə baxmadan atəş açırlar. İranın parçalanacağını da düşünmürəm.

İndiki beynəlxalq mühit buna imkan verəcək vəziyyətdə deyil. Həm ABŞ-nin, həm də Avropanın beyin mərkəzlərində də bura kifayət qədər diqqət ayrılmır.

Daha çox indiki rejimi yumşaltmaq, mötədil hakimiyyətlə əvəzləmək planları var. Bəzi qəsəbələrdə kürd, bəzilərində isə İraqdan daxil olan terrorçu dəstələrin yerli polis güclərinin qarşılaşması və s. nə Qərb, nə Avropa, nə də İsrail mətbuatında işıqlandırılır".

**Aygün Tahir**

# Minalar daşınır

## Ceyhun Bayramov Laçın dəhlizi ilə bağlı Ermənistana xəbərdarlıq edib

### Azərbaycan tərəfi bütün lazımi addımları atacaq



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Laçın dəhlizi ilə bağlı Ermənistana xəbərdarlıq edib. Nazir jurnalistlərə açıqlamasında Ermənistanın Laçın dəhlizindən razılaşmalara zidd formada istifadə etdiyini bildirib.**

XİN başçısı Ceyhun Bayramov deyib ki, üçtərəfli bəyanata əsasən, dəhlizin prinsipləri və istiqamətləri var: "Ancaq dəhliz buna zidd olaraq istifadə edilir. Buna son qoyulmalıdır. Azərbaycan tərəfi bütün lazımi addımları atacaq. Bununla bağlı həm beynəlxalq müstəvidə, həm də digər tərəfdaşlarla danışıqlarımız davam edəcək".

Ceyhun Bayramov qeyd edib ki, Ermənistanın üçtərəfli bəyanatla bağlı destruktiv addımları qəbuledilməzdir. Onun sözlərinə görə, Ermənistanın bu addımları postmünaqişə dövründə münasibətlərin normallaşmasına vurulan ən ciddi zərbədir: "Üçtərəfli bəyanatın fundamental prinsipləri pozulur. Həmin prinsiplər sırasında yer almış bütün erməni hərbi birləşmələrinin Azərbaycan ərazisindən çıxarılması öhdəliyi hələ də yerinə yetirilmir".

Xarici işlər naziri vurğulayıb ki, Ermənistan Azərbaycan ərazilərində basdırdığı minaları Laçın dəhlizindən daşıyıb. Onun sözlərinə görə, Ermənistan üçtərəfli bəyanatın bəzi müddəalarını yerinə yetirmir: "Yenə də Azərbaycan ərazisində minalar aşkarlanıb. Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi qəbuledilməzdir. 2021-ci il istehsalı olan minaların daşınması Laçın dəhlizi vasitəsilə həyata keçirilib".

**İsmayıl**

# "Çap mediasının tərtibatı əsaslı formada dəyişib"

## Əhməd İsmayılov: "Qəzet saytlarının yenidən qurulması prosesi də artıq başa çatıb"





"Deyə bilərik ki, qəzet saytları onlayn media subyektlərindən geri qalmır, əksinə, məzmun yaratmaq, əhəmiyyətli kontent istehsal etmək baxımından fərqlənə bilirlər"

**Dünən Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı, Media Təhlil Mərkəzinin (MTM) tərəfdaşlığı ilə "E-köşk" qəzet və jurnalların rəqəmsal yayım platformasının təqdimat mərasimi keçirilib. Toplantıda MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov, Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Kütləvi informasiya vasitələri ilə iş sektorunun müdiri Kamran Həsənov, Mətbuat Şurasının sədri Rəşad Məcid və jurnalistlər iştirak ediblər. Tədbir ölkəmizin Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ümummilli Lider Heydər Əliyev və Vətən müharibəsi şəhidlərinin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.**

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Kütləvi informasiya vasitələri ilə iş sektorunun müdiri Kamran Həsənov bildirib ki, son bir ildə ölkənin çap mediasında forma və məzmun baxımından ciddi dəyişikliklər var: "Dövlətimiz çətin dövrlərdə həmişə medianın yanında olub. Son bir il ərzində ölkənin çap mediasında forma və məzmun baxımından ciddi dəyişikliklər var. Müasir çağırışlar fonunda media rəqəmsal yeniliklərə uyğunlaşmalıdır. Hesab edirəm ki, "E-köşk" platforması müasir çağırışlara cavab verən platforma olacaq. Dünyada informasiya sahəsində gedən inkişaf fonunda media sahəsinə də yeni konseptual baxış tələb olunur". K.Həsənov deyib ki, Azərbaycanda çap mediasının üzləşdiyi əsas problem yayım və reklam məsələsi ilə bağlıdır. Onun sözlərinə görə, bütün dünyada yeni texnologiyaların tətbiq edildiyi bir dövrdə media sahəsinə də konseptual baxış tələb olunur: "Müasir dövrdə bütün dünyada çap mediası çətinliklərlə üzləşib. Bu, ölkəmizdə də belədir. Azərbaycanda əsas problem yayım və reklam məsələsi ilə bağlıdır. Ancaq hər zaman dövlətimiz medianın yanında olub. Hesab edirəm ki, belə dəstəyin göstərilməsi çox vacibdir".

**Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov bildirib ki, bir sıra qəzetlərimiz ənənəvi A3 formatı dəyişərək yeni tərtibatda B2 formata keçib, qəzetlərin əksəriyyəti artıq tam rəngli nəşr olunmaqdadır. Onun sözlərinə görə, MEDİA da bu çağırışlardan çıxış edərək yeni trendlərə uyğunlaşma prosesində çap mediasına dəstəyini davam etdirir:** "Bu istiqamətdə dövlət dəstəyinin məqsədi çap mediası subyektlərinin yalnız biznes strukturu kimi formalaşmasına yardım etmək deyil, eyni zamanda texniki imkanlar baxımından onlayn media ilə bərabər olmayan rəqabət şəraitində qəzetlərin mövcudluğunun qorunub saxlanılmasına köməklik göstərməkdir. Başqa sözlə desək, dövlət yazılı medianın timsalında Azərbaycan dilinin inkişafına, ənənəvi publisistik düşüncənin yaşamasına, bununla yanaşı cəmiyyətdə plüralizmin möhkəmlənərək sərhədlərinin genişlənməsinə dəstək göstərir".

**Ə.İsmayılov bildirib ki, MEDİA-nın dəstək verdiyi 6 gündəlik, 10 həftəlik olmaqla bütün qəzetlərdə, habelə onların eyniadlı veb-saytlarında əsaslı dəyişiklik, müasirləşmə özünü göstərir:** "Bir sıra qəzetlərimiz ənənəvi A3 formatı dəyişərək yeni tərtibatda B2 formata keçiblər, qəzetlərin əksəriyyəti artıq tam rəngli nəşr olunmaqdadır. Elə çap mediası subyektlərimiz var ki, tərtibatı əsaslı formada dəyişilib, köhnə forma və qəliblərdən imtina olunub. Məsuliyyətlə deyə bilərik ki, çoxşaxəli konvergensiya prosesinin ayrılmaz elementi olan qəzet saytlarının yenidən qurulması prosesi artıq başa çatıb. MEDİA ümumi dəstək zərfində qəzet saytlarının inkişaf etdirilməsini öhdəlik kimi irəli sürmüş və bunun üçün birdəfəlik vəsait ayırmış, eyni zamanda, aylıq dəstək göstərməyə də davam etməkdədir". MEDİA-nın rəhbəri qeyd edib ki, əksər qəzetlərin saytları ya yenidən qurulub, ya da əsaslı şəkildə dəyişilib: "Bunun nəticəsi olaraq deyə bilərik ki, qəzet saytları onlayn media subyektlərindən geri qalmır, əksinə, məzmun yaratmaq, əhəmiyyətli kontent istehsal etmək baxımından fərqlənə bilirlər".

**"EDUAZ co" MMC şirkətinin layihə meneceri Lalə Həsənova rəqəmsal yayım platforması ilə bağlı tədbirdə layihə barədə təqdimatla çıxış edib. Bildirib ki, jurnalistlər üçün "EDU.AZ" platforması üzərindən onlayn təlimlər keçiriləcək:** "Jurnalistlərin peşəkarlığının artırılması, bu sahədə yeni tendensiyaların öyrənilməsi məqsədilə medianın istifadəsinə veriləcək onlayn təlim platforması daha geniş auditoriyanı əhatə edəcək. Vaxta qənaət edilməsinə şərait yaradacaq, məkan və zamandan asılı olmayaraq təlimlərdən faydalanma və rahat funksionallıqdan istifadə imkanı yaradacaq. Təlimlərin sonunda onlayn sertifikatların təqdim edilməsini nəzərdə tutan layihə təkcə media nümayəndələri üçün deyil, eyni zamanda tələbələr, müəllimlər və biznes subyektləri üçün də müxtəlif mövzuların öyrənilməsi, şəxsi inkişafın təmin edilməsi sahəsində operativ və çoxməzmunlu platformaya çevriləcək, öyrənmə və inkişaf imkanlarını artırmaq istiqamətində effektiv yerli resurs olacaq".

Təqdimatda "Rəqəmsal dövrdə ənənəvi çap mediası: Müasir oxu vərdişləri və transformasiya perspektivləri" mövzusunda panel sessiya keçirilib. Panel sessiyaya moderatorluq edən millət vəkili, "Azernews" qəzetinin baş redaktoru Sevil Mikayılova bildirib ki, "E-köşk" platforması cəmiyyətdə oxu vərdişlərinin inkişaf etdirilməsinə, ənənəvi medianın rəqəmsallaşdırılmasına dəstək göstərəcək. Sessiyada Mətbuat Şurasının sədri Rəşad Məcid bu platformanın çap mediası subyektlərinin iqtisadi dayanıqlılığının artırılması, ənənəvi çap mediasının rəqəmsal mühitə uyğunlaşması istiqamətində innovativ addım olduğunu qeyd edib.

"Media Təhlil Mərkəzi" İctimai Birliyinin baş mütəxəssisi Yunis Orucov çıxışında texniki imkanlar baxımından onlayn media ilə bərabər çap mediasının inkişafına kömək məqsədilə "E-köşk" platformasının yaradılmasının təqdirəlayiq addım olduğunu diqqətə çatdırıb.

"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev və "Respublika" qəzetinin baş redaktoru Hümbət Musayev də platformanın ənənəvi çap mediasını hər kəs üçün daha əlçatan etməsindən, oxuculara mütəmadi olaraq yenilənən məlumat bazasından istifadə etməyə şərait yaratmasından danışıb.

Daha sonra Agentliyin Media dəstək layihələri şöbəsinin müdiri Ləman İsgəndərova platformanın üstünlüklərini, əhatə dairəsini, məqsədlərini əks etdirən təqdimatla çıxış edib. "Mass Solution" şirkətinin dəstəyi ilə hazırlanan "E-köşk" platformasının istifadə təlimatı, eyni zamanda cari müddətə qədər platformada hesab yaratmış redaksiyalara dair videoçarxlar nümayiş etdirilib.

Sonra Türkiyənin "Hürriyət" qəzetinin xəbər koordinatoru Fırat Karadeniz çap mediası məhsullarının təkmilləşdirilməsi və mediada peşəkarlığın artırılması üçün yeni tendensiyaların öyrənilməsi ilə bağlı çıxış edib. Tədbir çərçivəsində Fırat Karadenizin çap mediası subyektlərinin nümayəndələri üçün "Çap mediasında yeni texnologiyaların tətbiqi: innovativ biznes modelləri, müasir inkişaf tendensiyaları"; "Çap mediasında yayımlanan məzmunun yeni formatlara uyğunlaşdırılması" mövzularında təlimi də keçirilib.

*Qeyd edək ki, "E-köşk" platformasının yaradılma məqsədi çap mediasının ekoloji və iqtisadi dayanıqlılığını artırmaq, ənənəvi medianın rəqəmsallaşmasını təşviq etmək, informasiya cəmiyyətinə keçidi sürətləndirməkdir.*

**İsmayıl**



**Tanınmış jurnalist, Lent.az-ın əməkdaşı Səbuhi Məmmədli əməliyyat olunub.**

M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin ümumi şöbənin müdiri Ramil Məmmədli Lent.az-a açıqlamasında bildirib ki, əməliyyat uğurla keçib və hazırda jurnalistin vəziyyəti normaldır.

# Səbuhi Məmmədli əməliyyat olundu

## Jurnalistin vəziyyəti normaldır

Qarabağ qazisi, jurnalist Rey Kərimoğlu da Səbuhi Məmmədlinin əməliyyatdan çıxdığını və hər şeyin yaxşı olduğunu deyib.

*Qeyd edək ki, uzun müddətdir səhhəti ilə bağlı problem yaşayan həmkarımız akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində müalicə alır. Onda şəkərli diabet, ürək çatışmazlığı, ağciyərin aşağı payında pnevmoniya, aşağı ətrafların qan damarı mənşəli ağırlaşmış xroniki xəstəliyi qeydə alınıb. Eləcə də xroniki böyrək çatışmazlığı xəstəliyi səbəbilə davamlı olaraq dializlə təmin edilir.*

**Şəymən**

# Paşinyan KTMT-də son şansını da itirdi

## Nəticəni Bakının İrəvanı öz evində məğlub etməsi kimi də qiymətləndirmək olar



**Noyabrın 23-də İrəvanda keçirilmiş Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sammiti Ermənistan üçün tam fiasko ilə nəticələndi. Baş nazir Nikol Paşinyan qarşısına qoyduğu heç bir məqsədə nail ola bilmədi. KTMT üzvləri aydın şəkildə göstərdilər ki, öz mövqelərində qalırlar və bu mövqedən geri çəkilməyəcəklər.**

Əslində çox nadir bir haldır ki, hər hansısa ölkə zirvə görüşü təşkil edir, həmin tədbirdə onun özünü tənqid edirlər. Görünməyən hallardan biri də zirvə görüşünə ev sahibliyi edən ölkənin sammitin yekun sənədini imzalamaqdan imtina etməsidir. Paşinyan sənəddə Ermənistana yardımı yetərli görmədiyi üçün sənədi imzalamaqdan imtina etdiyini açıqlayıb. Ermənistan parlamentinin sədri Alen Simonyan deyib ki, KTMT regionu tərk edir və İrəvan bundan narahatdır: "Bizim partnyorlardan soruşmaq lazımdır ki, KTMT-nin Cənubi Qafqazı tərk etməsi qərarını veriblərmi? Əgər cavab "hə"dirsə, onda bunu ucadan deməlidirlər. Həyat sübut edir ki, KTMT-nin postsovet məkanındakı hərbi rolu özünü doğrultmur. Biz KTMT-yə Türkiyə-Azərbaycan tandemindən qorunmaq üçün qoşulmuşduq. Rusiyalı hərbi ekspert İqor Korotçenko deyib ki, KTMT-nin İrəvan sammiti Nikol Paşinyan üçün ən yaxşı halda belə xarakterizə oluna bilər: "Böyük pərişanlıq. Bunu heç bir ironiya-filan olmadan, necə var, eləcə deyirəm. Bizim hamımıza Cənubi Qafqazda sülh lazımdır. Bundan ötrü Ermənistandan olan həmkarlarımız üçtərəfli bəyanatı açmalı və bənd-bənd yerinə yetirməlidir, fasiləsiz demoqogiya və təxribatları yığışdırmalıdır. Hamı bütün bunlardan bezib. Heç kəs Nikol Paşinyanın komandası üçün əlini odun içinə soxmayacaq". Belarus lideri Aleksandr Lukaşenko da bildirib ki, KTMT tərəf deyil: "Nikol Vovayeviç (Paşinyan) deyir ki, KTMT Azərbaycanı aqressiyadan çəkindirə bilmədi, biz belə deyilik. Kimisə saxlamaq bizim işimiz deyil. Gəlin, bu istiqamətdə irəliləyək. Gəlin razılaşaq, hər şey edək ki, orda adamlar ölməsin. Bu, Ermənistan və Azərbaycan cəmiyyətində məmnuniyyətlə qarşılanacaq".

Göründüyü kimi KTMT-yə üzv ölkələrin liderləri fərqindədir ki, Ermənistan üzv olduğu bütün təşkilatları, o cümlədən də KTMT-ni öz ambisiyalarını reallaşdırmaq üçün bir vasitə kimi qiymətləndirir. Bu halda digər üzvlərin maraq və mənafelərini nəinki nəzərə almır, Ermənistan özünü elə aparır ki, sanki hamı ona borcludur, onun üçün nə isə etməlidir, öz maraqlarına zidd olsa belə yardım göstərməlidir. Müasir dövrdə ikitərəfli və çoxtərəfli əlaqələrdə bu, mümkün olmayan bir məsələdir və Paşinyan bu gerçəkliyi anlamır. Buna görə də onun ABŞ, Avropa İttifaqı, KTMT və digər ölkələr, təşkilatlara müraciətlərinin heç bir səmərəsi olmur və olmayacaq da. Bütün dünya, o cümlədən də KTMT-yə üzv dövlətlər işğalçı, digər bir ölkənin ərazilərinin 30 il ərzində işğal altında saxlayan Ermənistanın əsl mahiyyətini aydın bilirlər və buna görə də Paşinyanın Azərbaycanla məsələlərin həlli kontekstində təkliflərinin, təşəbbüslərinin və tələblərinin səmimiliyinə inanmırlar. KTMT-yə üzv ölkələr Azərbaycanın böyük potensialını, onun ardıcıl, aydın, bərabərhüquqlu əməkdaşlığa yönəlmiş siyasətini görürlər və ölkəmizi etibarlı tərəfdaş kimi qəbul edirlər. Ermənistan baş naziri iddialarla çıxış edəndə və təşkilata üzv ölkələrə qarşı tələblər irəli sürəndə ya bu reallığı nəzərdən qaçırır, ya da ona əhəmiyyət verməməyə çalışır. Bu yanaşma Ermənistanın bütün cəbhələrdə fiaskosunu şərtləndirən başlıca amildir.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə açıqlamasında deyib ki, Paşinyan KTMT-də Bakıya qarşı son şansını da itirdi. Analitikə görə, Ermənistan KTMT-dən istədiyini növbəti dəfə də ala bilmədi:** "Təşkilatın müzakirə etdiyi məsələlərin ikisi Azərbaycanla bağlı olub. Sərhəd məsələsində Ermənistana hərbi dəstəyin verilməsi və Azərbaycanın "hücumuna" siyasi qiymətin verilməsi. İrəvanın gündəliyə daxil edildiyi bu iki məsələdən savayı digərləri qəbul olunub. KTMT "Ermənistan-Azərbaycan sərhədindəki gərginliklə bağlı kompleks tədbirlərin hazırlanmasını razılaşdırmaqla" İrəvana Bakı ilə bağlı tələblərinin qəbul edilməyəcəyinə dair açıq mesaj verdi. Paşinyan narazıdır və bunu açıq mətnlə ifadə etdi, həm də bu, İrəvan üçün itirilmiş fürsətdir. Ermənistan KTMT-yə sədrliyi dövründə Azərbaycana qarşı cəbhəni qurmaq şansının olduğunu düşünür, buna çalışırdı, lakin sədrlik etdiyi son iclasda da nəticə əldə edə bilmədi. Belarusun KTMT-yə sədrlik edəcəyi müddətdə Azərbaycanla bağlı məsələlərin gündəmə daxil edilməsi, yaxud qəbul edilməsi imkanları olduqca zəifdir. Lukaşenkonun mövqeyi də bunu deməyə əsas verir.

Paşinyanın KTMT-də Azərbaycana qarşı əlindəki son şansdan istifadə edə bilməməsini Bakının İrəvanı öz evində məğlub etməsi kimi də qiymətləndirmək olar. Ermənistan bundan sonra KTMT və Rusiyaya qarşı sərgilədiyi mövqeyi gücləndirəcək. Lakin bunun rəsmi İrəvan səviyyəsindən daha çox, ictimai rəy müstəvisində kampaniya şəklində olacağı ehtimalı daha böyükdür".

**İsmayıl Qocayev**

# General narahatlığını dilə gətirdi

## Rus sülhməramlılarının yerləşdiyi əraziyə texnika daşınır

**"İki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində görülən işlərə Ermənistandakı revanşist qüvvələr hər vəchlə maneçilik törətməyə çalışır".**



"Gecikmədən, yubanmadan qəti və sərt addımlar atmalıyıq. Keçən hər gün separatçılara və onların dəstəkçilərinə əlavə şans yaradır ki, ərazilərimizi daha çox çirkləndirsinlər"

Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəis müavini general-leytenant Ceyhun Şadlinski "Vətən müharibəsinin təcrübələri" mövzusunda konfransda deyib. General bildirib ki, bu ölkənin silahlanmaya və ordu quruculuğuna öz imkanlarından artıq maliyyə vəsaiti ayırması narahatlıq doğuran məqamdır: "Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisinə hərbi texnikalar daşınır. Orada müxtəlif təxribat xarakterli tədbirlər keçirilir. Bunlar xüsusilə diqqət çəkir". Həmçinin C.Şadlinski vurğulayıb ki, Ermənistan müasir silahlar almağa cəhd göstərir, sülh müqaviləsinin imzalanmasını yubatmağa meyil edir.

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərov "Şərq"ə açıqlamasında deyib ki, vəziyyət o qədər dözülməz həddə çatıb ki, artıq Azərbaycanın yüksək rəsmiləri də məsələni dilə gətirməyə, ictimailəşdirməyə ehtiyac görüblər. Ekspert vurğulayıb ki, görünür, söhbət Qarabağa qeyri-qanuni daşınan atıcı silahlardan, minalardan getmir:** "İlk dəfə idi ki, belə bir iclasda DTX generalı, müdafiə naziri və digər yüksək ranqlı rəsmilər bu məsələni açıq formada gündəmə gətirirlər. Həm Ermənistan hökumətinə, həm də torpaqlarımızda yerləşdirilmiş Rusiya sülhməramlılarına siqnal, mesaj verilir. Anlaşılan odur ki, separatçılara ağır hərbi texnikalar çatdırılır. Gecikmədən, yubanmadan qəti və sərt addımlar atmalıyıq. Keçən hər gün separatçılara və onların dəstəkçilərinə əlavə şans yaradır ki, ərazilərimizi daha çox çirkləndirsinlər. Qarabağa daşınan sursatlara, oradakı qanunsuz birləşmələrin silahlanmasına çox ciddi yanaşmalıyıq. Şuşanın iki addımlığında cəmlənmiş silahlar sabah bizə qarşı çevriləcək. Məqsəd bölgədə yaradılmış infrastruktura ziyan vurmaq, sakinlərin həyatını təhlükə altında qoymaq üçün təxribat törətməkdir. Təbii ki, bu məsələdə heç bir halda seyirçi mövqe tutmamalıyıq və düşmənin bütün təxribatlarının qarşısını almalıyıq. Hesab edirəm ki, hərbi attaşelərin Laçına, Sarıbaba yüksəkliyinə getməsi də sıradan hadisə deyil. Adekvat tədbirlərimiz, cavab addımlarımız olacaq, ancaq hansı formada olacağına ölkə rəhbərliyi qərar verəcək".

**İsmayıl Qocayev**

## Güneyin səsi





# Farsların dar ağacından asdıqları Firudin İbrahimi

## Edam səhər tezdən saat 5 radələrində icra olunub

**İkinci Dünya müharibəsinin başlanması, kənar güclərin İran adlanan ölkənin ərazisinə daxil olması və cərəyan edən proseslər Rza şahın başçılıq etdiyi istibdad rejimini dərindən laxlatdı. Bir tərəfdən xarici müdaxilə, digər tərəfdən mövcud rejimin yıxılması İranda müəyyən qədər demokratik mühitin yaranmasına səbəb oldu.**

Güney Azərbaycanda gedən milli-azadlıq hərəkatı Seyid Cəfər Pişəvərinin başçılığı altında Azərbaycan Milli Hökumətinin yaranması ilə nəticələndi. Tarixi-siyasi ədəbiyyatda Azərbaycan Milli Hökuməti "21 Azər" hərəkatı adı ilə tanınmaqdadır. Azərbaycan Milli Hökuməti İran adlanan ölkədə Azərbaycan türklərinin milli muxtariyyət hüququnu tanıyan bir hökumət kimi fəaliyyətə başlasa da, daha sonra siyasi istiqamətini müstəqil dövlətçilik səmtinə yönləndirmək məramı izlədi. Seyid Cəfər Pişəvərinin başçılıq etdiyi Milli Hökumətin dəyərli üzvlərindən biri Firudin İbrahimi idi. Olduqca gənc yaşlarında yüksək posta layiq görülmüş F.İbrahimi Güney Azərbaycanın Ərdəbil vilayətinin Astara şəhərində dünyaya gəlib. Erkən yaşlarından Rza Şah Pəhləvi despotizmini qəbul etməyən Firudin İbrahimi üsyankar səsini qaldırmağa başlayıb. O, yaxşı dərk edirdi ki, Güney Azərbaycanın azadlığını əldə etməsi üçün hüquqi cəhətdən əsaslarını təmin etmək lazımdır. Ona görə də Tehran Universitetinin hüquq fakültəsinə daxil olur və tələbəlik illərində dünyada hüququ prinsipləri dərindən öyrənir. Firudin İbrahimi hələ 23 yaşında Güney Azərbaycanda Pəhləvi istibdadına qarşı mübarizə aparmaqla gəncliyin simvoluna çevrilmişdi. "Xavəri nov" (Yeni Şərq) qəzetində öz ideyalarını gündəmə gətirmişdi. O, məqalələrində şah istibdadına və onun yerlərdəki feodallarına şiddətlə qarşı çıxırdı. Bir sözlə, Azərbaycan Milli Hökumətinin yaradılması istiqamətində baş verən proseslərdə Firudin İbrahiminin də misilsiz rolu var idi. Firudin İbrahimi Milli Hökumətdə Məclis üzvü olmaqla yanaşı, həm də baş prokuror təyin edildi. 26 yaşında Şərq aləmində bu yaşda baş prokuror statusunu daşıyan ikinci şəxs olmayıb. O, Güney Azərbaycanda ədalətli cəmiyyətin hüquqi əsaslarının həyata keçirilməsi işinə rəhbərlik edirdi. Şah istibdadı rejimini bərpa etmək və zülmkar feodalların əksinqilabi qüvvələrinə qarşı mübarizə aparan "Babək" adlı könüllü dəstələrin təşkilatçılarından biri də Firudin İbrahimi idi. O, "Ettelat", "Ajir", "Rəhbər", "Mərdom", "Zəfər", "Siyasət", "Mərdan" və Milli Hökumətin tribunası "Azərbaycan" qəzetlərində məqalələrlə çıxışlar edirdi. Milli Hökumətin əsas üzvlərindən biri kimi Firudin İbrahimidə olan zəngin enerjinin tükənməzliyi çoxlarını heyrətə gətirirdi. O, kabinetdə heç zaman oturmazdı, daim əhali ilə görüşlərə qatılar, xalqın hüquq və azadlıqlarını pozmağa çalışan ərbabların və mövhumatçı mollaların qarşısını alardı. Ona görə də gənc baş prokuror kimi xalq tərəfindən çox sevilirdi.

Həmin dövrdə Rza şah Pəhləvi və oğlu Məmmədrza şah Azərbaycan türklərinin milli varlığının məhv edilməsi istiqamətində siyasət yürüdürdülər. Onlar Azərbaycan türkcəsinin ölkədə işlədilməsini yasaqlamışdılar. Azərbaycan türklərinin İrana gəlmə olduğu barədə saxta tarix kitabları yazılırdı. Firudin İbrahimi ana dili olan Azərbaycan türkcəsinin müdafiəçilərindən biri idi. O baxımdan mənsub olduğu millətin dilini, ədəbiyyatını, mədəniyyətini, tarixini araşdıraraq, kimin gəlmə olduğuna tutarlı faktlarla cavab verib, qədim tariximizi zamanına və şəraitə görə uğurla araşdırıb.



آذربایجان ملی حکومتینین بناسی

Azərbaycan Milli Hökumətinin binası

**"Çox keçməz ki, Azərbaycan xalqı qələbə çalacaq və yenidən Azərbaycanda Milli Hökumət qurulacaq"**

2017-ci ildə Azərbaycanın Əməkdar jurnalisti Rəhim Hüseynzadənin redaktorluğu ilə Firudin İbrahimlinin 25-28 yaş aralığında qələmə aldığı və ilk dəfə 1946-cı ildə Təbrizdə çap edilmiş "Azərbaycanın qədim tarixi" adlı kitabı əski əlifbadan latın qrafikasına tərcümə olunaraq yenidən nəşr olunub. Kitabda onun müxtəlif zamanlarda yazdığı məqalələr toplanıb və Azərbaycanın, İranın tarixinə dair maraqlı məqamlar yer alıb. Kitaba ön söz yazan tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadə qeyd edib ki, günün ictimai-siyasi məsələlərinin təhlilinə həsr olunmuş çoxlu sayda məqalələr yazmış Firudin İbrahimi ana dilindən başqa fars, fransız və ərəb dillərini də mükəmməl bilib. Bildirib ki, Firudin İbrahiminin "Azərbaycan danışır... İftixarlı tariximizdən bir neçə parlaq səhifə" (Azərbaycanın qədim tarixindən) başlıqlı yazıları 19 hissədən ibarət olmaqla 31 oktyabr - 21 noyabr 1945-ci il tarixləri arasında "Azərbaycan" qəzetinin 42-ci sayından başlayaraq 60-cı sayı da daxil olmaqla ayrı-ayrı başlıqlarla fars dilində çap olunub.

Azərbaycanın Əməkdar jurnalisti, İranlı Mühacirlər Cəmiyyətinin sədri Rəhim Hüseynzadə kitab haqqında fikirlərini qeyd edərkən vurğulayıb ki, Firudin İbrahiminin haqqının ödənməsi istiqamətində şair və yazıçılarımız qismən işlər görüblər. Mirzə İbrahimovdan sonra Balaş Azəroğlu, Mədinə Gülgün, Söhrab Tahir, onların davamçıları Arif Səfa, Tariyel Ümid poema və digər poetik nümunələrdə öz sözlərini deyiblər. Lakin jurnalist, publisist, yazıçı, tarixçi, bir neçə dildə səlis danışan siyasətçi, dövlət xadimi, hüquqşünasın malik olduğu xəzinə hələlik arxivlərdə araşdırıcılarının yolunu gözləməkdədir: "Azərbaycan Milli Hökuməti dövründə qədim Azərbaycan tarixinə dair ana dilində qələmə alınan bu ilk əsər müəllifin müasirlərinə və sonrakı nəsillərə həmin sahədəki ətalətin aradan qaldırılması üçün tövsiyəsi, çağrışıdır. Bütün imperiyaların mahiyyətində istilaçılıq, başqa xalqların haqlarına şərik çıxma xüsusiyyəti var. Ona görə də zatən demokrat, mütərəqqi insan olan F.İbrahimi qarşıya Mad imperiyasının timsalında heç də fövqəladə bir modelin təqdimatını məqsəd qoymayıb. Bununla belə sətiraltı, bəzən birbaşa mənalarla sözünü deyib. Böyük mütəfəkir və ziya sahibi olan müəllif əsərdə işlətdiyi parslara aid ifadələr onun azərbaycanlıların əsrlər boyu qonşuluqda yaşadıqları farslara həqarətinin ifadəsi kimi qətiyyən qəbul edilməməlidir. Kitabı diqqətlə oxuyan arif oxucular bunu asan sezə bilərlər".

Elmi, siyasi, dövlətçilik fəaliyyəti örnək olmuş F.İbrahimi Azərbaycanın azadlığı uğrunda şəhidliyi ilə də gələcək nəslə nümunə sayıla bilər. Azərbaycanda Milli Hökuməti 1946-cı ilin dekabrın 11-də Məhəmmədrza şah tərəfindən qan içində boğulduqdan sonra F.İbrahimini həbs ediblər. İran şahlıq rejiminin amansız ordusu ilə qeyri-bərabər döyüşdə, Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin binasında 34 saatlıq silahlı müqavimətdən sonra o, həbs olunub, zindana salınıb. Həbsxanada yüksək ləyaqətini qoruyub saxlayan F.İbrahimi İran xəbər agentliklərindən birinin "Siz prokuror olduğunuz zaman hansı işləri icra etmisiniz" sualını belə cavablandırıb: "Biz məhbusların cinayət işlərini araşdırdıq, mürtəce qanunlar əsasında həbs edilən günahsız insanları azad etdik. Xalqın hüquqlarını müdafiə etməklə onları satqın hakimlərin zülmündən xilas etdik".

Onun məhkəmədə irticaçı şah rejimini ittiham edən nitqi isə bu gün də İran azadlıqsevərləri üçün nümunədir: "Gün gələcək ki, bütün İran xalqını öz hüquqlarından məhrum edənlər, onların mədəniyyət və milli qürurlarını tapdalayanlar, öz ciblərini və kisələrini qızılla doldurmaq xatirinə zəhmətkeş insanları istismar edənlər xalq qarşısında törətdikləri xəyanət və cinayət əməllərinə görə cavab verməyə məcbur olacaqlar". F.İbrahimini 1947-ci ilin mayın 23-də Təbriz şəhərinin Gülüstan bağında dar ağacından asıblar. Hadisə şahidləri, onun qohumları və ailə üzvləri bildiriblər ki, edam səhər tezdən, saat 5 radələrində icra edilib. O, dar ağacının ətrafında toplaşanlara belə müraciət edib: "Çox keçməz ki, Azərbaycan xalqı qələbə çalacaq və yenidən Azərbaycanda Milli Hökumət qurulacaq. Yaşasın Azərbaycan və İran xalqlarının birliyi! Yaşasın doğma Ana Vətənimiz Azərbaycan!". Xalq yazıçısı Mirzə İbrahimovun "Gələcək gün" romanında və şairə Mədinə Gülgünün "Firudin" poemasında F.İbrahiminin vətənpərvər, qəhrəman və gözəl insan obrazı yaradılıb.

Əlbəttə, gənc yaşında şəhidlik zirvəsinə ucalmış Firudin İbrahimi aldığı təhsil, mükəmməl dünya görüşü ilə İrandakı hakimiyyətə, Məhəmmdrza şaha xidmət edib, böyük var-dövlət sahibi də ola bilərdi. Ancaq o, ən ağırını və şərəflisini seçərək, millətinə - Azərbaycana xidmət etməyə üstünlük verdi. Bir daha sübut etdi ki, öz millətinə ləyaqətlə xidmət edənlər unudulmur, sevilir və örnək olurlar. F.İbrahiminin həyat və fəaliyyəti xatırlananda bir millətin bu gün də üzləşdiyi problemlər göz önünə gəlir, Azərbaycanın fəxr ediləcək tarixi yada düşür.

**İsmayıl**

# "Qara maskalı"lar Naxçıvana da ayaq basdı

## Bütün ölkə üzrə "təmizləmə" prosesi başlayıb




**Dünən Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşları Naxçıvan Muxtar Respublikası Gömrük Komitəsində araşdırmalara başlayıblar.**

Qeyd edək ki, Naxçıvan gömrük rəsmilərinin milyonlarla dəyərində qaçaqmalçılıqda iştirakı və büdcə pullarının yeyintisi araşdırılır.

DTX-nin Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirdiyi əməliyyat zamanı saxlanılanların olduğu bildirilir.

**Bu kimi əməliyyatların təqdirəlayiq olduğunu deyən Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni "Şərq"ə vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə şəffaflığın artırılması, ictimai mövqeyin gücləndirilməsi, məmur özbaşınalığına və korrupsiya hallarına son qoyulması üçün ən sərt şəkildə islahatların aparıldığını müşahidə edirik:** "Bununla əlaqədar olaraq da dəfələrlə rəy vermişik. Hansı dövlət qurumu olduğundan asılı olmayaraq, bütün təşkilatlarda islahatlar gedir. Bu islahatlar həm Azərbaycanın rayonlarında, həm də Naxçıvan Muxtar Respublikasında davam etdirilir. Yəni bütün ölkə üzrə "təmizləmə" prosesi başlayıb. Bildiyimiz kimi müxtəlif dövlət qurumlarında və nazirliklərdə olan məmurlar etdiyi əməllərə görə cinayət məsuliyyətinə cəlb olunurlar. DTX onların ifşası üçün xüsusi əməliyyatlar keçirir. Ölkə başçısının təşəbbüsü ilə bu kimi islahatların davam edəcəyini düşünürəm. Bütün məmurlar, dövlət qurumları isə bu "təmizləmə"lərdən nəticə çıxarmalıdır".

**Nihat Müzəffər**

# Nazir təhsil sistemindən çox məlumatsızdır

## Heç də bütün ibtidai sinif müəllimləri yüksək maaş almır



**Təhsil naziri Emin Əmrullayevin ibtidai sinif müəlliminin institut direktorundan çox maaş alması ilə bağlı fikirləri ictimaiyyətdə birmənalı qarşılanmayıb. Cəmiyyətin bir qismi bunu müəllimlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən layihələrin nəticəsi kimi dəyərləndirib. Digər kəsim isə nazirin bu açıqlamasını təhsil sahəsindəki mövcud problemlərin açıq şəkildə etirafı kimi qəbul edir.**

*Təhsil eksperti Kamran Əsədov isə "Şərq"ə açıqlamasında deyib ki, müəllimlərin əməkhaqqı nə qədər çox olsa belə, yenə də onların zəhməti qarşılığında azdır:* "Hörmətli Emin müəllimin qeyd etdiyi əmək haqqını isə heç də bütün ibtidai sinif müəllimləri almır. Görünür, cənab nazirin ibtidai sinif müəllimlərinin sayı, ibtidai siniflərin sayı və onların dərs yükü ilə bağlı o qədər də məlumatı yoxdur. Fikrimcə, bu ifadə ilə nazir ibtidai sinif müəllimlərinə böyük hörmətsizlik etmiş oldu.

Bu gün ölkənin 4432 orta ümumtəhsil məktəbində 150 min müəllim çalışır. 1000 manatdan yuxarı maaş alan müəllimlərin sayı 5 min nəfərdir və bu da orta hesabla hər məktəbdə 1 nəfərin bu yüksək məbləğli maaşı ala bilməsi anlamındadır.

Əksər kənd rayonlarındakı məktəblərdə musiqi, təsviri incəsənət, texnologiya, fizika və kimya fənləri üzrə 5-6 saat, coğrafiya, biologiya və informatika fənləri üzrə 8-9 saat, fiziki tərbiyə fənni üzrə 10 saat və tarix fənni üzrə 12 saat dərs mövcuddur. Bu cür məktəblərdə ali təhsilli riyaziyyat, dil-ədəbiyyat və xarici dil fənn müəllimlərinin heç biri tədris-yardımçı heyət olan və orta təhsilli UBTR, kitabxanaçı və laborant qədər belə maaş ala bilmir. Ali təhsilli müəllimin psixoloq qədər maaş alması üçün azı 14 saat, tam orta təhsilli UBTR və kitabxanaçı qədər maaş alması üçün azı 13 saat, hətta ümumi orta təhsilli laborant qədər maaş alması üçün azı 12 saat dərs deməlidir. Qeyd etdiyimiz məktəblərdə ali təhsilli informatika, biologiya, kimya və fizika müəllimlərinin IX sinfi bitirib ümumi orta təhsil alan informatika, biologiya, kimya və fizika laborantları qədər belə maaş ala bilməməsi çox dəhşətli mənzərə yaradır.

Ali təhsilli müəllimlərin hətta texniki işçilər, yəni xadimə qədər əməkhaqqı alması üçün belə azı 10 saat dərs saatlarını tədris etməsi lazımdır. Orta ixtisas təhsilli sinif və fənn müəllimlərinin minimum əməkhaqqı qədər maaş alması üçün isə azı 12 saat dərs deməsi tələb olunur".

**Ekspertin sözlərinə görə, qanunvericilikdə müəllimlər üçün məktəblərdə ştat vahidi mövcud olmasa da, onların həftədə 36 astronomik saat iş yerində olması tələb edilir:** "Müəllimlər üçün ştat vahidi olmadığı kimi yarımştat anlayışı da mövcud deyil. Yəni müəllimlərin əməkhaqları bir dərs yükünə uyğun ödənilsə də məktəblər onların əsas iş yeri hesab edilir. Bu o deməkdir ki, həftədə 6 akademik saat dərs deyən müəllim də, 36 akademik saat dərs deyən müəllim qədər, yəni həftədə azı 36 astronomik saat işdə olmalıdır. Bu da məktəblər əsas iş yeri olan və aşağı dərs saatına malik müəllimlərin digər iş yerlərində ən yaxşı halda saathesabı, yarımştat və ya əlavə iş yeri kimi işləməsini mümkün edir.

Bu gün ibtidai sinif müəllimlərinin sayı, ibtidai siniflərin sayından dəfələrlə çoxdur ki, bu da onların tam stafka dərs yükünün formalaşmasına maneə olur.

Yəni bütün ibtidai sinif müəllimlərinin çox əmək haqqı alması fikrini formalaşdırmaq təhsil sistemindən məlumatsız olmaqdan başqa bir şey ifadə etmir.

Dünya ölkələrindəki əmək haqlarına nəzər saldıqda, məlum olur ki, bir sıra ölkələrdə müəllimlərin maaşı Azərbaycanla müqayisədə təxminən, 10 dəfə artıqdır. Qeyd edim ki, ölkəmizdə müəllimlərin maaşı onların təhsil səviyyəsi və iş stajlarına görə dəyişir. Burada bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılması da önəm kəsb edir. Qeyd edim ki, müəllimlərin sonuncu əməkhaqqı artımı 2022-cu ildə baş verib. Bu artımdan sonra rəqəmləri ümumiləşdirsək, müəllimlərin 300-600 manat əməkhaqqı aldığı məlum olur.

Bizim ibtidai sinif müəllimləri əziyyətlərinin müqabilində çox az əmək haqqı alırlar.

Yaponiyada müəllim dövlət qulluqçusu statusu daşıyır. Yeni başlayan ibtidai sinif müəllimi aylıq 2 min dollar maaş alır. 25 illik iş stajı olan müəllim isə 65 yaşında təqaüdə çıxır. Amma orada nazirləri ibtidai sinif müəllimlərini təhqir etmir, onların əməkhaqqına göz dikmir".

**Şəymən Bayramova**

# Putin Azərbaycan-Ermənistan dəmiryolunun bərpası ideyasını dəstəkləyib

## Bu haqda Paşinyan hökumətin iclasında açıqlama verib



**Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib ki, Rusiya lideri ilə dəmiryolunun bərpası ilə bağlı işə qayıtmağın əhəmiyyəti barədə danışıblar.**

"Rusiya Prezidenti Vladimir Putinlə danışıqlar zamanı Azərbaycanla Ermənsitan arasında dəmir yolunun bərpası ideyası müzakirə olunub. Putin dəmiryolunun bərpası ideyasını dəstəkləyib".

Bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

O bildirib ki, Horadiz-Mehri-Ordubad-Yerasx dəmiryolunun bərpası layihəsi canlandırıla bilər:

"Dünənki danışıqlarda biz dəmiryolunun bərpası ilə bağlı işə qayıtmağın əhəmiyyəti barədə danışdıq".

Qeyd edək ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının noyabrın 23-də İrəvanda keçriilən sammiti çərçivəsində V. Putinlə N.Paşinyan arasında görüş olub (Report).

# Ərdoğan quru əməliyyatların anonsunu verdi

## Türkiyənin Suriya və İraq qərarına nə ABŞ, nə də Rusiya qarışa bilər



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, Suriya və İraqın şimalındakı son əməliyyatlarla bağlı ABŞ və Rusiya prezidentləri ilə danışmayıb. Ərdoğanın sözlərinə görə, Bayden və Putin artıq bilirlər ki, Türkiyə bu regionda istənilən vaxt belə əməliyyatlar keçirə bilər: "Həmişə deyirik ki, bir gecə qəfildən gələ bilərik. Biz icazə ilə çalışmırıq. Əgər bir addım atacağıqsa, ona özümüz qərar veririk və həmin addımı atırıq. ABŞ belə məsələlərdə bizi tanımalıdır.**

Bu yöndə necə qətiyyətlə və daha mühüm addımlar atacağımızı hamı görəcək". Türkiyə lideri həmçinin quru əməliyyatlarının anonsunu verib: "Ən qısa zamanda tankımızla, əsgərlərimizlə bütün terrorçuları məhv edəcəyik. Təyyarələr, PUA-lar və artilleriya ilə əməliyyatlarımız hələ başlanğıcdır. Bütün sərhədlərimizi təhlükəsizlik lenti ilə bağlamaq əzmimiz hər zamankindən daha güclüdür. Biz artıq bu zolağın bir hissəsini yaratmışıq. Qalanları addım-addım həll edəcəyik. Terrorçuların gizlənərək özlərini təhlükəsiz hiss etdikləri o beton tunelləri onların məzarına çevirləcəyi gün yaxındır. Biz ən münasib vaxtda qurudan da terrorçuların başlarına çökəcəyik". Ərdoğan vurğulayıb ki, ruslarla əldə edilən razılaşmaya görə, Moskva bölgədəki terrorçuları təmizləməli idi: "Lakin dəfələrlə xatırlatmağımıza baxmayaraq, bunu etmədilər. Biz də bunlara qarşı səssiz qalmayacağımızı, oradakı terrorçulara qarşı addım atacağımızı söylədik". Türkiyə lideri Suriyadakı rejimin başçısı Beşar Əsədlə görüşüb-görüşməyəcəyi barədə verilən sualı belə cavablandırıb: "Siyasətdə küskünlük yoxdur. Əvvəl-axır bu istiqamətdə addımlar atacağıq".

Kreml sözçüsü Dmitri Peskov deyib ki, Türkiyə və Suriya prezidentləri nəzəri olaraq Rusiyada görüşə bilər, lakin bunu belə razılaşma yoxdur. Putinin Suriya üzrə xüsusi nümayəndəsi Aleksandr Lavrentyev isə bildirib ki, Moskva belə bir görüş təşkil etməyə hazırdır: "Hər iki tərəfin istəyi olsa, Moskvanın belə bir görüşü təşkil edəcəyini düşünürəm. Həttə buna şübhə etmirəm. Belə bir görüş son dərəcə vacibdir. Lakin görüş düzgün hazırlanmalı, bunun üçün müəyyən şərtlər yetişməlidir". Lavrentyev qeyd edib ki, Rusiya Türkiyəni əməliyyat keçirməkdən çəkinməyə inandırmağa çalışıb: "Hesab edirik ki, bu əməliyyat təkcə Suriyada deyil, bütün Yaxın Şərq regionunda gərginliyin ciddi artmasına səbəb ola bilər".

ABŞ-dan da Türkiyəyə çağırış edilib. ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays deyib ki, Ağ Ev Suriyanın şimalında gərginliyin dərhal azaldılmasını tələb edir: "Biz regionda sabitliyi pozan, ABŞ mülki şəxsləri və şəxsi heyətini təhlükəyə atan son hərbi əməliyyatlardan dərin narahatıq".

**Türkiyənin Suriya və İraqın şimalında apardığı antiterror əməliyyatını "Şərq"ə dəyərləndirən politoloq Natiq Miri deyib ki, 2019-cu ildə Türkiyə "Zeytun budağı" əməliyyatı keçirərkən Rusiya və ABŞ-la bir anlaşma əldə etmişdi. Razılaşmalara görə, PKK-nın Suriya qolları olan PYD və YPG terrorçuları cənuba doğru 30 kilometr çəkilməli idilər:** "Vaşinqton və Moskva öz imzaları ilə bunu təsdiqləmişdilər. Ağ Ev 120 saat ərzində tərəfdaşlarının Suriyanın cənubuna doğru 30 kilometr arxaya çəkilməsini təmin etməliydi. Ancaq bu, reallaşmadı. Ona görə də hazırda Amerika və Rusiya rəsmilərinin Türkiyənin antiterror əməliyyatına qarşı çıxması hansısa məna kəsb etmir. Aparılan hərbi əməliyyatlar özünümüdafiədir və BMT-nin nizamnaməsinə uyğun davranışdır. Heç kim buna görə Türkiyəni ittiham edə bilməz. Nəzərə almaq lazımdır ki, hazırda Türkiyədə 4 milyona yaxın suriyalı qaçqın məskunlaşıb. Əlbəttə ki, suriyalılar ömür boyu Türkiyədə yaşaya bilməzlər və mütləq öz yurdlarına geri dönməlidirlər. Əfsuslar olsun ki, suriyalı qaçqınların geri qayıtması üçün heç bir ölkə, beynəlxalq təşkilat əlini daşın altına qoymaq istəmir. Bütün yükü təkbaşına daşıyan Türkiyədə müəyyən iqtisadi-sosial problemlər yaşanmaqdadır. O baxımdan Türkiyə məcburdur ki, şimal sərhədləri boyunca, 30 kilometr dərinliyində təhlükəsizlik zonası yaratsın. Bundan sonra suriyalılar həmin bölgəyə köçürüləcək. Problem kökündən və birdəfəlik həll olunmadıqca, konservləşmiş formada qalacaq və gələcək dövrlərdə daha ciddi çətinliklərə səbəb olacaq. 2019-cu ildən bu yana 3 il zaman keçib. Mövcud problemin bu səviyyəyə çatmasında Türkiyə hakimiyyətinin də ciddi qüsurları olub. Türkiyə Prezidenti R.T.Ərdoğan hava hücumlarından sonra quru əməliyyatının başlayacağının anonsunu verdi. Əgər Qərb və Rusiya əməliyyatlara razılıq verməzsə, quru əməliyyatları başlamazsa, yaxud yarımçıq qalarsa, bu, hakim Ədalət və İnkişaf Partiyasının (AKP) nüfuzuna təsir göstərəcək. Həmçinin, lokallaşmış problem qarşıdakı dönəmlərdə ortaya çıxacaq. Yəni aparılan siyasət davamlı və ardıcıl olmalıdır ki, nəticəsi də müsbət olsun. Türkiyənin ictimai rəyi də suriyalı məsələsinin birdəfəlik çözümünü istəyir və gözləyir".

*N.Miri bəyan edib ki, Türkiyənin əməliyyat apardığı ərazilərdə Suriya rejiminin nəzarəti yoxdur:* "Həmin bölgələrdə olan bütün enerji daşıyıcıları ABŞ-ın tabeliyində məhz PKK terrorçuları tərəfindən istismar edilir və hökumətə satılır. Qardaş ölkənin antiterror əməliyyatları ilk növbədə Türkiyənin, digər yandan elə Suriyanın öz təhlükəsizliyinə xidmət edəcək. Rusiyanın bu yöndə vasitəçiliyinə də ehtiyac yoxdur. İki müsəlman, qonşu dövlətin başçıları xüsusi xidmət orqanlarının rəhbərlərinin timsalında təmaslara icazə verərsə, tərəflərin görüşü rahatlıqla alınar".

**İsmayıl Qocayev**



# Qızıl tarazlığı qorumaq lazımdır

## Hökumət mümkün qədər çalışmalıdır ki, əhali inflyasiyanın zərərçəkəninə çevrilməsin

**"2023-cü il dövlət büdcəsinin tədqiqi hökumətin gələn il əməkhaqqı, təqaüd və müavinətlərin artımı ilə bağlı geniş sosial paketlər açıqlamayacağını göstərir".**

*Bu sözləri "Şərq"ə iqtisadçı Rəşad Həsənov Milli Məclisin komitələrində gələn ilin dövlət büdcəsinə dair aparılan müzakirələrə münasibət bildirərkən deyib. O qeyd edib ki, sözügedən istiqamətlərdə ayrılan vəsaitlər müvafiq paketlərin açıqlanmasını maliyyələşdirəcək gücdə deyil:* "2023-cü il ərzində başqa qərarların qəbul olunması istisna hesab edilmir. Bunun üçün əlavə fondlardan vəsaitlər yönəldilə bilər. Eyni zamanda neftin büdcədə 50 dollardan hesablanması ilə əlavə gəlir ehtimalı çox yüksəkdir.

Amma bugünkü müzakirələrdə ortaya qoyulan rəqəmlər hökumətdə hələ ki belə bir mövqeyin olmadığını deməyə əsas verir. Həmçinin sənədlərin təhlili, Hesablama Palatasının rəyinə baxış da göstərir ki, hökumət hazırda büdcə xərclərəlmlərində sosial yükün artırılmasının inflyasiyaya təsir göstərə biləcəyindən narahatdır.

Çünki Hesablama Palatasının rəyində hətta əməkhaqları, təqaüdlər, müavinətlərin artımının inflyasiyaya spiralvari geri dönüş yaratma ehtimalı ilə bağlı xüsusi qeyd var idi. Hər kəsə məlumdur ki, xərcləmə imkanı, bazara daxil olan vəsaitin artması müəyyən qədər inflyasiyaya əsaslar formalaşdırır.

Burada dövlətin funksiyası balansı təmin etməkdir. Hökumət mümkün qədər çalışmalıdır ki, əhali inflyasiyanın zərərçəkəninə çevrilməsin. Ona görə də qızıl tarazlığı qorumaq lazımdır.

Digər tərəfdən inflyasiya ilə mübarizə insanların əməkhaqqı, müavinət və təqaüdünü azaltmaqla olmalı deyil. Növbəti mərhələlərdə dəyişiklik olmasa, müzakirə edilən sənədlərdə hər hansı bir ciddi məsajlar görmürük".

*Qeyd edək ki, Milli Məclisin komitələrində gələn ilin dövlət büdcəsinin müzakirələri aparılır. Müzakirələrdə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Maliyyə naziri Samir Şərifov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və digər dövlət rəsmiləri, deputatlar iştirak edib.*

**Sücayət Mehti**



# Qazi adından sui-istifadə edənlər var

## Kamil Musavi: "Biz millətin başına qaxmaq və ya kimlərlə dalaşmaq üçün vuruşmamışıq"

**Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, paytaxtda Vətən uğrunda döyüşlərdə qəhrəmanlıq göstərən hərbi qulluqçulara verilən orden və medalları, hərbi geyimi, fərqlənmə nişanlarını qanunsuz əldə etməklə göründü yaradan şəxs polis əməkdaşları tərəfindən saxlanılıb.**

Döyüşlərdə iştirak etməyən 2-ci qrup əlil, 36 yaşlı şəxs barəsində qanunamüvafiq tədbirlərin görülməsi təmin edilib. Ondan üzərində daşıdığı orden və medallar, hərbi geyim götürülüb.

**Məsələyə münasibət bildirən qazi Kamil Musavi "Şərq"ə deyib ki, qazi adından sui-istifadə etmək yolverilməzdir:**

"Dünən həmin adam barəsində xəbəri mən də oxudum. Açığı, heç vaxt qazilərin vəziyyətdən sui-istifadəsini sevməmişəm. Bu addan istifadə edənlərin qarşısını almaq üçün isə təklif edirəm ki, hərbi geyimlərin satıldığı dükanlarda sənəd tələb edilsin.

Yəni qazi və hərbçilərin hər birinə dövlət tərəfindən sənədlər verilib. Hərbi forma və ləvazimatlar bu sənədlərə baxıldıqdan sonra satılmalıdır.

Təəssüf ki, əksər mağazada buna əməl olunmur və nəticədə də belə hallar baş verir. Digər tərəfdən bəzi müharibə iştirakçıları var ki, vətəndaşlara yer, növbə və s. üstündə münaqişə edirlər.

Düzdür, ölkə başçısının da sərəncamı var ki, Vətən müharibəsi iştirakçıları və qazilər hər yerə növbəsiz buraxılmalıdır. Lakin biz millətin başına qaxmaq və ya kimlərlə dalaşmaq üçün vuruşmamışıq.

Ona görə də vətəndaşlarımızın bizdən narazı qalmaması üçün bu cür hallara maksimum dərəcədə diqqət etməliyik. Çünki biz Azərbaycanda seçilmişlər və uca qazi adını qazananlarıq. Bu mənada müqəddəs məramı qoruyub saxlamalıyıq".

**Nihat Müzəffər**

# Kirayə haqqı ədalətli deyil

## Evləri sökülənlərə 20 faiz əlavə kompensasiya ödənməlidir

**Paytaxtın Sabunçu rayonu, Xəstəxanayanı küçəsinin sakinləri narazıdırlar. Səbəb sözügedən ərazidə ev 39, 41 və 43 ünvanlarında aparılan sökəntü işlərinə görə sakinlərə ödənilən kompensasiyanın azlığıdır. Bu barədə KİV-də məlumat yayılıb. Bildirilir ki, sökülməsi planlaşdırılan evlərin yerində yeni çoxmərtəbəli yaşayış binaları tikiləcək. Bu kimi hallarda olduğu kimi sakinlərə müvəqqəti yaşayış üçün kirayə mənzillərdə qalmaq, tikinti başa çatdıqdan sonra isə yeni binada mənzillə təmin edilmək vəd edilir.**

Deyilənə görə, vətəndaşlara aylıq 300 manat kirayə haqqı təklif edilir. Bu məbləğlə razılaşıb mənzillərini tərk edənlər də var, razılaşmayanlar da. Köçmək istəməyən vətəndaşlarla danışıqlar aparılır. Sabunçu Rayon İcra Hakimiyyətindən bildirilib ki, paytaxtın digər ərazilərində olduğu kimi Sabunçu rayonunda da istismar müddəti başa çatmış qəzalı vəziyyətdə olan yaşayış binalarından sakinlərin köçürülməsi və binaların sökülərək yerində yeni çoxmənzilli binaların inşa edilməsi istiqamətində işlər aparılır: "Sabunçu qəsəbəsi, Xəstəxanayanı küçəsi, ev 39, 41 və 43 ünvanlarında yerləşən yaşayış binalarından sakinlərin köçürülməsi və sökülməsi işlərinə başlanılıb. Bina sakinlərinin qarşılıqlı razılıq əsasında həmin binaların yerində müasir standartlara uyğun olaraq yeni inşa ediləcək çoxmənzilli yaşayış binalarından tam təmirli mənzillərlə təmin edilməsi, mənzildən imtina edən sakinlərə isə müvafiq kompensasiyaların verilməsi nəzərdə tutulub. Hər kvadrat metrə görə sakinlərə min manat ödənilməsi nəzərdə tutulub". Bəzi sakinləri narazı salan da elə budur - hər kvadrat metrə görə 1000 manat ödənməsi. Oxu.az saytına şikayət edən sakinlərdən biri Telman Tağıyev bu barədə danışaraq deyib ki, verilən kompensasiya onları qane etmir: "Heç bir sənəd təqdim etmədən sökəntüyə başlayıblar. Bəzi vətəndaşlar ərazidə yeni bina inşa ediləcəyini zənn edərək, aylıq 250 manat kirayə haqqı alıb, evlərdən çıxırlar. Amma indi onlara deyilir ki, sökülən binanın yerində yaşayış binası tikilməyəcək". Sakin mənzillərin heç bir xəbərdarlıq edilmədən uçurulduğunu deyib: "Sabunçu Rayon İcra Hakimiyyəti tərəfindən heç bir məlumat verilmir. Evlərin kvadratına görə tam hesablanma aparılmır". Sabunçu Rayon İcra Hakimiyyəti isə deyilənləri təkzib edib. "İlk olaraq Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri tərəfindən yaşayış üçün təhlükəli olduğu müəyyən edilərək, binalarda gücləndirmə və əsaslı təmir işlərinin aparılmasının məqsədəmüvafiq olmaması barədə aktlar tərtib edilmiş Sabunçu qəsəbəsi, Xəstəxanayanı küçəsi, ev 39, 41 və 43 ünvanlarında yerləşən yaşayış binalarından sakinlərin köçürülməsi və sökülməsi işlərinə başlanılıb.



*İcra Hakimiyyətləri vətəndaşların yox, tikinti şirkətlərinin maraqlarına xidmət edir*

Bina sakinlərinin qarşılıqlı razılıq əsasında həmin binaların yerində müasir standartlara uyğun olaraq yeni inşa ediləcək çoxmənzilli yaşayış binalarından tam təmirli mənzillərlə təmin edilməsi, mənzildən imtina edən sakinlərə isə müvafiq kompensasiyaların verilməsi nəzərdə tutulub. Xəstəxanayanı küçəsi, ev 41, mənzil 13 a ünvanında yaşayan vətəndaş Telman Tağıyevin şikayətinə əsasən, nəzərinizə çatdırırıq ki, müraciət müəllifinin yaşadığı mənzilin sahəsi həm Bakı Şəhər İcra Hakimiyyətindən təqdim olunmuş sənədlərdə, eləcə də yerində aparılan ölçü işləri zamanı 33,10 kv.m qeyd olunub. Sahəsinə uyğun olaraq ona müvafiq kompensasiya ödənilməsi təklif olunub. Bundan başqa, sökülməsi nəzərdə tutulan binaların yerində yeni inşa ediləcək binadan yaşadığı mənzilin mövcud sahəsindən 20 faizədək artıq sahəsi olan tam təmirli mənzil də ona təklif olunub. Lakin vətəndaş T.Tağıyev mənzilin faktiki sahəsindən başqa, heç bir mülkiyyət hüququnu təsdiq edən sənədi olmayan, əlavə tikililərin də (54,60 kv.m) hesablanmasını tələb edir. Ona dəfələrlə lazımi izahatlar verilib ki, qeyd olunan işlərin başa çatdırılması üçün dövlət tərəfindən ayrılan maliyyə vəsaitində sənədsiz əlavə tikililər üçün vəsaitin ödənilməsi nəzərdə tutulmayıb", - qurumdan qeyd edilib.

**"Əmlak Ekspert Mərkəzi"nin rəhbəri Ramil Osmanlı "Şərq"ə açıqlamasında bildirib ki, cənab Prezidentin fərmanına uyğun olaraq evləri sökülən, mənzillərindən köçürülən vətəndaşlara 20 faiz əlavə kompensasiya ödənməlidir:**

- Təəssüf ki, vətəndaşların çoxu bu fərmandan, orada vətəndaşların hüquqlarının təminatından, Fərmanın məhz vətəndaşların mövqeyini müdafiə etdiyindən xəbərsizdir. Hər kvadrat metrə görə 1000 manat ödənməsi, əmlakın alqı-satqı dəyəridir. Amma harada, hansı ünvanda, neçə kvadrat metrlik yaşayış sahəsində yaşamalarından asılı olmayaraq vətəndaşlara bu tip sökəntülər zamanı əlavə olaraq 20 faiz dəyərində kompensasiya ödənişi edilir. Yəni edilməlidir. Vətəndaş tutalım bunu bilmir, Fərmandan xəbərsizdir. İcra Hakimiyyəti ki bilir. İH vətəndaşların mövqeyindən çıxış etməli, vətəndaşın hüquqlarını qorumalıdır, Prezidentin fərmanına əməl edərək. Lakin təəssüf ki, bəzən biz İH-lərinin tikinti şirkətlərinin maraqlarına xidmət etdiyini görürük. Vətəndaşlar yaxşı olar ki, imzalanan fərmanlardan, sərəncamlardan xəbərdar olsunlar. Hüquqlarını tələb etsinlər.

**R.Osmanlı qeyd etdi ki, mənzil sahəsi 33.10 kv.m. olan sakinin mənzilinin ölçüsü fərmana uyğun olaraq 20 faiz artıq - təxminən 42 kv.m. hesablanmalıdır:**

- Hesab edirəm ki, kirayə haqqı da ədalətli, optimal rəqəm deyil. Aylıq kirayə pulu hazırkı şərtlər nəzərə alınmaqla minimum 400 manat olmalıdır. Bəzən mənzillərin uçuq-söküük, istismar müddətini başa vurmuş olması, paytaxtın mərkəzi hissələrindən kənarda yerləşməsi bəhanə gətirilərək kirayə haqqı və mənzillərin alqı-satqısı aşağı qiymətlərlə aparılır. Bu, düzgün deyil və qanuna ziddir. Vətəndaşın harada, necə yaşaması onun öz hüququdur. Lakin hansısa tikinti şirkəti ərazidə sökəntü aparıb orada müasir yaşayış binası, yaşayış kompleksi tikir və bundan mənfəət əldə edirsə, vətəndaşın mənfəətini də nəzərə almalı və sakinləri razı salmalıdır. Ümumiyyətlə, hökumətin strategiyası belədir ki, sökəntü işləri zamanı nağd ödəməyə deyil, əvəzlənməyə - mənzil əvəzinə mənzil variantına üstünlük verilsin. Çünki nağd ödənişlər zamanı sonradan bir sıra problemlər üzə çıxırdı. Vətəndaş nağd pulu başqa məqsədlər üçün istifadə edir, sonra isə məhkəməyə müraciət edib ödənilən məbləğin azlığından şikayətlənir, kompensasiya tələb edirdi. Bu isə həm məhkəmələrin yükünü artırır, həm də dövlət büdcəsinə zərər verirdi. Lakin əvəzlənmə variantı da bəzən uyğunsuz olur. Sakinə 3 otaqlı mənzil əvəzinə, yeni binada bir qədər geniş ölçüdə 2 otaqlı mənzil təklif edilir. Yaxud da tikinti şirkətləri hiyləgərlik edərək satış üçün nəzərdə tutulan mənzillərin ölçüsünü böyük, əvəzlənmə edəcəkləri mənzilləri isə kiçik ölçülü inşa edirlər. Tikinti şirkətlərinin mənfəət əldə etməsi nə qədər başa düşülən və qəbul olunandırsa, sakinlərin hüquqları istənilən halda üstündür. Sakinlər tamamilə haqlı olaraq köhnə mənzilini tərk etməyə bilər, nə qədər ki, istədiyi formada ona kompensasiya ödənməyib. Vətəndaşın harada, hansı şəraitdə yaşaması onun müstəsna hüququdur. Əgər kimsə köhnə binanın yerində yeni bina tikmək istəyirsə, öncə vətəndaşı razı salmalıdır.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;**



# Hamı milli vəzifəsini və məsuliyyətini dərk etməlidir

## Artıq sözdə deyil, əməldə diaspordan lobbiçiliyə keçmək lazımdır

**Azərbaycan müstəqillik qazandıqdan sonra diaspor quruculuğu sahəsində önəmli addımlar atılıb, mühüm nailiyyətlər əldə edilib. Hazırda dünyanın 31 ölkəsini əhatə edən və 130 diaspor təşkilatını özündə birləşdirən 14 Koordinasiya Şurası fəaliyyət göstərir. 12 ölkədə fəaliyyət göstərən 18 Azərbaycan Evi isə xaricdə milli atributumuz kimi, maddi-mənəvi dəyərlərimizi təbliğ etdirməklə sosial-mədəni məkan rolunu oynayır. Azərbaycan evləri bir ocağa çevrilib. Diaspor quruculuğu və dünya azərbaycanlılarının təşkilatlanması məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.**

Ümummilli Lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya ətrafında birləşdirilməsi istiqamətində çox mühüm işlər görülüb. Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların birliyi, bir araya toplanması, təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlayıb. Ümummilli Lider daim Azərbaycan diaspor cəmiyyətlərinin problem və qayğılarına böyük həssaslıqla yanaşıb. Onlara öz dəstəyini əsirgəməyib. Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində deyirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir. Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır". 1993-cü ildə Ümummillli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra xaricdə yaşayan azərbaycanlılarla sistemli iş aparılması və diaspor quruculuğu istiqamətində mühüm addımlar atılıb.

Ulu Öndərin hakimiyyətdə olduğu illər ərzində azərbaycanlıların təşkilatlanması istiqamətində müəyyən işlər görülüb. Türkdilli ölkələrin diaspor təşkilatları ilə əlaqələr qurulub və birgə fəaliyyət strategiyası qəbul olunub. Heydər Əliyev "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" 2001-ci il 23 may tarixli mühüm əhəmiyyətli sərəncamı ilə milli diaspor quruculuğunun təməlini qoyub. Sözügedən sərəncama əsasən, həmin il noyabr ayının 9-10-da Bakıda dünya azərbaycanlılarının ilk qurultayı keçirilib. Qurultayda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvləri müəyyənləşdirilib. Məhz bu qurultay xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşərək təşkilatlanması baxımından dönüş nöqtəsi olub. Dünya Azərbaycanlılarının I Qurultayında 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil etməklə, 406 nümayəndə və 63 qonaq iştirak edirdi. 2002-ci il 5 iyul tarixli Fərmanla Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (indiki Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da gücləndirdi. Heydər Əliyevin diaspor quruculuğunda xidmətlərindən biri də xaricə səfərləri zamanı daim həmin ölkələrdə yaşayan həmvətənlərimizlə görüşlər keçirməsi, onların problem və qayğıları ilə yaxından maraqlanması, tövsiyələrini verməsi olub. Bu görüşlər zamanı Heydər Əliyevin verdiyi tövsiyələr diasporumuzun güclənməsi, inkişaf etməsi və əsas fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib. Heydər Əliyevin diaspor siyasətinin əsas mahiyyəti azərbaycanlıların tarixi vətənləri ilə əlaqələrini inkişaf etdirmək, xaricdə yaşayan azərbaycanlıların mədəni-siyasi hüquqlarını müdafiə etmək idi. Əsasını Ümummilli Liderin qoyduğu diaspor siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev 2008-ci il noyabrın 19-da Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Fərman imzaladı. Həmin il dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının toplantısında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edildi. Azərbaycan həqiqətlərinin daha geniş coğrafiyada yayılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələri müzakirə etmək məqsədilə 2006-cı il fevralın 8-də imzalanan müvafiq sərəncama uyğun olaraq həmin il martın 16-da Bakıda Dünya azərbaycanlılarının II qurultayı keçirildi. Bu mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım oldu. Bir il sonra - 2007-ci il martın 9-da Bakı daha bir mühüm tədbirə - Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I Forumuna ev sahibliyi etdi. Bu Forum bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrildi, Azərbaycan Prezidentinin türk dünyasının birliyinə verdiyi önəmin parlaq təzahürü kimi tarixə düşdü. Bu ilin aprelində Dünya azərbaycanlılarının V qurultayının işğaldan azad olunan Şuşada keçirilməsi isə tarixi əhəmiyyət və rəmzi məna daşıyırdı. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar Qarabağda bir araya gələrək, diaspor tarixində ilkə imza atdılar. Məhz Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti, liderliyi, milli maraqlarımızı qətiyyətlə müdafiə etməsi, düşünülmüş və qətiyyətli siyasəti bu reallığı mümkün etdi.

**Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri, tanınmış jurnalist Fuad Hüseynzadə "Şərq"ə açıqlamasında deyib ki, müasir dövrdə xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında milli-mənəvi birliyin möhkəmləndirilməsi, soydaşlarımızın təşkilatlanması prosesi keyfiyyətcə yeni məzmun kəsb etməkdədir.** Ekspert bildirib ki, hazırda dünyanın müxtəlif ölkələrində 550-dən artıq Azərbaycan icması fəaliyyət göstərir və diasporumuzun təşkilatlanma prosesi bu gün də davam edir: "Azərbaycan hakimiyyətinin apardığı düzgün siyasətin nəticəsidir ki, həmin təşkilatlar bu gün problemsiz olaraq müxtəlif ölkələrdə fəaliyyət göstərirlər. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında müxtəlif ölkələrin ictimai, siyasi və dövlət xadimləri, elm adamları, eləcə də KİV ilə əlaqələrin qurulması çox mühümdür. Azərbaycan diasporu bu məsələlərə daha çox diqqət yetirməli, bəzi ölkələrdə Azərbaycan haqqında erməni diasporu və lobbisi tərəfindən formalaşdırılmış yanlış təsəvvürlərin aradan qaldırılması üçün öz imkanlarını maksimum dərəcədə səfərbər etməyə çalışmalıdır. Artıq sözdə deyil, əməldə diaspordan lobbiçiliyə keçmək lazımdır. Bu artıq diaspor qarşısında duran milli vəzifə və məsuliyyətdir. Ümumiyyətlə, Vətən müharibəsindən sonra diasporumuzun məsuliyyəti daha da artıb. Müxtəlif ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrin genişləndirilməsini xarici siyasətdə prioritet istiqamətlərdən biri kimi nəzərdən keçirən dövlət başçısı İlham Əliyev ölkədəki sosial-iqtisadi inkişaf strategiyasının mahiyyətinə uyğun olaraq diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlərin həyata keçirilməsini vacib sayır. Bu yöndə aparılan dövlət siyasətinin mahiyyəti dünya azərbaycanlılarının potensial imkanlarını müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həlli naminə səfərbər etmək, milli birliyə, həmrəyliyə və mütəşəkkilliyə nail olmaqdır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub




# Mədəniyyət Nazirliyinin strukturları sanki cinayət yuvasına çevrilib

## Aydın Xan Əbilov: "Cəmiyyət haqlı olaraq burada baş verənləri izləyir, müzakirə edir"

**Mədəniyyət Nazirliyinin Azərbaycan Dövlət Kukla Teatrında yoxlamalara başlaması ictimaiyyətdə ciddi narazılıq yaradıb. Iddialara görə, araşdırmaların aparılmasına səbəb mədəniyyət nazirinin sabiq birinci müavini Elnur Əliyevin biletin qiymətinin bahalaşması ilə bağlı tələbinə teatrın direktoru Rəşad Əhmədzadənin etiraz etməsi səbəb olub. Həmin andan teatrın illik plan proqnozu 50 faiz artırılıb.**

Rejissor Səidə Haqverdiyevanın mətbuatda səsləndirdiyi iddialar da nazirliyin hiddətini daha da artırıb.

"Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrına xarici ölkələrdən dəvət gəlir. Mədəniyyət Nazirliyi onlara "bizim sizi festivala göndərməyə büdcəmiz yoxdur", - deyə cavab veribmiş.

"Biz dəvət eləyən ölkənin imkanlarıyla festivala qatılırıq. Qısa vaxtdan sonra xəbər tuturuq ki, başqa teatr daha böyük heyətlə məhz Mədəniyyət Nazirliyinin dəstəyi ilə festivala gedir. Bu zaman hansı ədalətli münasibətdən söhbət gedə bilər? Bu, haqsızlıqdır", - deyə rejissor bildirib.

Göründüyü kimi, Mədəniyyət Nazirliyinin strukturlarında baş verən neqativ hallar həll edilmək əvəzinə daha da genişlənir.

Eyni zamanda da bir sıra məsələlərlə bağlı şayiələr və iddialar mövcuddur. Mədəniyyət sferasında, eləcə də ictimaiyyətdə saysız şayiələr dolaşır ki, bu gün də muzeylərdə, mədəniyyət ocaqlarında, kitabxanalarda, musiqi məktəblərində və başqa yerlərdə maxinasiyalar baş baş verir. Muzeylərdə dəhşətli vəziyyət yarandığı barədə dolaşan söz-söhbətlərə görə, bəzi muzeylərdə eksponatların, xalçaların, qədim sikkələrin əslini götürüb onu oxşarı ilə əvəz edirlər.

*Yeni Yazarlar və Sənətçilər Birliyinin sədri, analitik-ekspert, yazıçı-kulturoloq Aydın Xan Əbilov isə "Şərq"ə açıqlamasında deyib ki, ölkəmizdə fəaliyyət göstərən bir çox dövlət qurumunda olduğu kimi Mədəniyyət Nazirliyinin sistemində çox qəribə proseslər gedir və haqlı olaraq cəmiyyət Mədəniyyət Nazirliyinin Mərkəzi aparatında baş verən neqativ prosesləri sorğulayıb, ciddi şəkildə müzakirə edir:*

" Nazirliyin strukturları sanki cinayət yuvasına çevrilib. Ayın əvvəlində DTX-nin Mədəniyyət Nazirliyində keçirdiyi əməliyyat nəticəsində nazirin birinci müavini və digər vəzifəli şəxslər həbs edildi. Bu hadisə ictimaiyyətin gündəmindən düşməmiş nazirlik daha bir biabırçılığa imza atdı. Söhbət Kukla Teatrındakı yoxlamalar və illik planın 50 faiz artırılmasından gedir. Nazir müavininin qiymət artımı ilə bağlı tələbini teatrın direktoru rədd edib deyə, o boyda nazirlik işini-gücünü buraxıb tələm-tələsik yaratdığı komissiyanı Kukla Teatrının işini yoxlamağa göndərib. 80 faizindən çoxu teatr binasına ayaq basmayan bir cəmiyyətdə, uşaqların intellekt səviyyəsini, estetik zövqünü artırmaq istəyən valideynlərin üz tutduğu Kukla Teatrını da sıxışdırmaq, korrupsiya damğası ilə ləkələmək yolverilməzdir. Hesab edirəm ki, atılan bu yanlış addım birbaşa Mədəniyyət naziri Anar Kərimovun yarıtmaz iş prinsipini nümayiş etdirir. Təəssüflər olsun ki, bir neçə dövlət qurumuna rəhbər təyin edilən gənclər təmsil etdikləri qurumun məsuliyyətini dərk edə, ölkə başçısı tərəfindən onlara yaradılan şəraiti, göstərilən etimadı doğrulda bilmədilər".

**Kulturoloqun dediyinə görə, kinoteatrlarımızda, muzeylərimizdə, teatrlarımızda, mədəniyyət ocaqlarımızda çox dəhşətli hallar mövcuddur:** "Lənkəranda "Dəyirmi Qala" deyilən çox unikal tarixi abidə var. Lənkəranlılar deyirlər ki, vaxtilə Mədəniyyət Nazirliyi onu təmir edib, amma keyfiyyətsiz materiallardan istifadə olunduğuna görə yenidən dağılıb. Damı çökən qala xarabalığa çevrilib. Bununla bağlı Mədəniyyət Nazirliyinə dəfələrlə müraciət edilsə də, məsələ ilə maraqlanan olmayıb. Nazirliyin əsas qayəsi tanınmış mədəniyyət, incəsənət, ədəbiyyat adamlarının fəaliyyətini görməzdən gəlmək, onları dövlətdən incik salmaqdır.

Mədəniyyət, ədəbiyyat naminə kifayət qədər uğurlu layihələr, tədbirlər keçirilir, nazirlik isə özünü görməzliyə vurur. Amma teatr, ədəbiyyatla bağlı iki cümlə tənqidi fikir səsləndirən kimi başlayırlar səni qaralamağa.

Sanki biz hansısa məmuru tənqid edəndə orada çalışan vəzifəli şəxslərin "üzüyünün qaşı düşür".

Humanitar sahə üzrə illərini, ömrünü verən düşüncə adamlarına heç bir maddi-mənəvi dəstək, fəxri ad verilməyib, göndərilən məktublara sovet dövründə olduğu kimi " vaxtı çatanda baxılacaq" cavabı verilir. Bu da təbiidir, çünki bunu dövlətə çatdırmalı olan Mədəniyyət Nazirliyidir, o da çatdırmır. Nazirlik bunu yuxarı instansiyalara çatdırmalıdır ki, bu insanların yubileyidir, onlar ömrünü dövlətin incəsənətinə, mədəniyyətinə, humanitar-estetik düşüncəsinin inkişafına həsr edib".

**Şəymən**

# Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi yaxından öyrənilib

## Partiyalar haqqında yeni qanun layihəsi xalqın siyasi iradəsini ifadə edir



**"Parlamentdə təmsil olunan siyasi partiya nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı Milli Məclisin sədrinə bir neçə ay bundan öncə müraciət ediblər". Bu barədə "Şərq"ə açıqlamasında millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Cavid Osmanov deyib. Deputat bildirib ki, ölkəmizdə bu sahədə qanun qəbul edilməsindən artıq 30 il keçib: "Təbii ki, bu müddətdə Azərbaycan davamlı olaraq inkişaf edib və ölkənin ictimai-siyasi həyatında köklü dəyişikliklər baş verib.**

Yeni qanun layihəsinin hazırlanması ilə bağlı siyasi partiyaların təklifi Milli Məclisin sədri tərəfindən dəstəklənib və yeni qanun layihəsinin hazırlanması haqqında tapşırıq verilib. Yeni qanun layihəsi hazırlanarkən dünyanın qabaqcıl ölkələrinin təcrübəsi öyrənilib. Həmçinin ölkənin siyasi sistemi və milli xüsusiyyətləri, bununla yanaşı, Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi haqqında tövsiyələri nəzərə alınıb. Milli Məclis tərəfindən ölkədə fəaliyyət göstərən siyasi partiyalara öz təkliflərini bildirmələri üçün müraciət edilib və 47 siyasi partiyadan 250-dən çox təklif alınıb. "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi hazır olduqdan sonra Milli Məclisin saytında yerləşdirilib, geniş ictimaiyyətin müzakirəsinə təqdim olunub. Bundan əlavə, qanun layihəsi ilə bağlı siyasi partiya təmsilçilərinin və Qeyri-Hökumət Təşkilatlarının nümayəndələrinin iştirakı ilə iki dinləmə keçirilib. İctimai dinləmələrdə, mətbuat və sosial şəbəkələrdə sənədlə bağlı aparılan müzakirələrdə təqdim olunan təkliflər nəzərə alınaraq, qanun layihəsi üzərində iş davam etdirilib və sənəd yenilənmiş variantda müzakirəyə çıxarılıb. Bir sözlə, siyasi partiyaların ictimai müzakirələr zamanı səsləndirdiyi fikirlər sənəddə öz əksini tapıb. Müxtəlif platformalarda geniş müzakirələrin təşkil edilməsində məqsəd qanun layihəsinin Konstitusiyaya və Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olmasına, habelə birləşmək azadlığı hüququnu özündə ehtiva etməsinə nail olmaq olub. Məhz bu məqsədlə də müzakirələr zamanı siyasi partiyalar və ictimaiyyət nümayəndələrinin səsləndirdiyi fikirlər qanun layihəsinə edilən dəyişikliklərdə öz əksini tapıb". Parlament üzvü vurğulayıb ki, yenilənmiş layihədə sənədlərin toplanması ilə bağlı müddət artırılıb, partiyanın təsis edilməsi, qeydiyyatı, sənədlərin yoxlanılması ilə bağlı rəqəmlər azaldılıb: "Layihəyə edilən dəyişikliklər nəticəsində müzakirələr zamanı bəzi məqamlarla bağlı narahatlıq doğuran məsələlər aradan qaldırılıb. Konkret olaraq, qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə uyğun formada hazırlanıb. Dövlətin idarə olunmasında və hakimiyyətin formalaşmasında əsas institutlardan biri partiyalardır. Odur ki, partiyalarla bağlı yeni qanun layihəsi demokratik prinsiplərə əməl edilməklə, şəffaflıq şəraitində hazırlanıb. Layihədə müdafiə olunmayan təkliflərin sənəddən çıxarılması, əvəzində demokratik norma və prinsiplərə daha çox üstünlük verilməsi sübut edir ki, qanun layihəsi xalqın siyasi iradəsini ifadə edir. "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi sağlam siyasi mühitin formalaşmasında, yeni cəmiyyət quruculuğu prosesinin sürətləndirilməsində mühüm əhəmiyyətə malik olacaq. Qanun layihəsi çoxpartiyalı sistemin yaradılmasına, partiyaların ölkənin ictimai-siyasi həyatında rolunun artmasına xidmət edəcək. Qəbul ediləcək yeni sənəd Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına, dövlətlə siyasi partiyalar arasında səmərəli əməkdaşlığa, siyasi partiyalar arasında qarşılıqlı faydalı dialoqa öz töhfəsini verəcək. Burada dövlətin də əsas məqsədi ölkədə siyasi mühitin canlanması və çoxpartiyalılıq üçün əsasların genişləndirilməsidir".

**İsmayıl**



## Çingiz Mustafayev Məkkəyə getdi

O bildirib ki, uşaqlıq arzusunu gerçəkləşdirib

**Müğənni Çingiz Mustafayev Məkkəyə Həcc ziyarətinə yollanıb.**

İfaçı bununla bağlı özü məlumat paylaşıb. O bildirib ki, uşaqlıq arzusunu gerçəkləşdirib:

"Uşaqlıq dönəmlərimdə Məkkəni ancaq şəkillərdə görürdüm, hətta rayondakı evimizdə də divarda şəkli var idi. Bu müqəddəs torpaqlara ayaq basdığım üçün özümü çox şanslı və xoşbəxt hiss edirəm. Kəbəyə yaxınlaşmağa başlayanda içimdən heç vaxt hiss etmədiyim və təkrarolunmayacaq hisslər keçirdim. Sanki ürəyim lotos gülü kimi açılmağa başladı. Hətta bir anlıq qorxu gəldi içimə, elə bildim özümdən gedəcəyəm. Ruhum bədənimi tərk edəcək. Allah hər kəsə bu gözəl hissləri yaşamağı nəsib etsin".

## "Haqqımda olmayan sözlər çıxartdılar"

Brilliant Dadaşova şayiələrdən danışıb



**Xalq artisti Brilliant Dadaşova haqqında yayılan şayiələrdən danışıb.**

Müğənni bu haqda "Elgizlə izlə" proqramına zəng edərək söz açıb.

"Xoşlamamışam kədərimi bölüşüm. Həmişə tamaşaçı ilə sevincli anlarımı bölüşmək istəmişəm. Rəqiblər və bəzi tamaşaçılar haqqımda olmayan sözlər çıxartdılar. Ağlıma gəlməyən şayilər yaydılar. Ağlıma gələməyib, amma mənə yapışdırıblar. Şayiələr çoxaldıqca, insanalar onlara inanır. 20-30 il davam edəndə, gerçəyə çevrilir. Sübut edə bilmirsən ki, şayiədir".

# "Haqq işimizə heç bir ölkə münsif ola bilməz"

## Azərbaycan Frankofonları adından Fransa Senatına etiraz məktubu göndərilib






**15 noyabr 2022-ci il tarixində Fransa Senatı Azərbaycana qarşı sanksiya tətbiq edilməsinə dair qanun layihəsini müzakirəyə çıxarıb və qəbul edib. Biz bu qərarı böyük məyusluq və təəccüblə qarşıladıq. Dünyaya insan azadlığı, demokratiya və hüquq bərabərliyi ilə bağlı dərs keçməyə cəhd edən bir ölkə Senatının bütün hüquqi və mənəvi qaydaları pozub belə bir qətnamə qəbul etməsi böyük ədalətsizlikdir. Bu qanun layihəsi eyni zamanda fransızların "Azadlıq, bərabərlik, qardaşlıq" ideyasına, əxlaqa və normal siyasi məntiqə yad hərəkətdir. Bununla siz Fransanın dünya xalqları arasında uzun əsrlər boyu qazandığı hörmət və etimadın itirilməsi yolunda son dərəcə yanlış addım atmısınız.**

Azərbaycan təkcə erməni işğalçılarına qarşı 2020-ci ildə Vətən müharibəsi günlərində apardığı haqq savaşında deyil, eyni zamanda Birinci Qarabağ müharibəsində (1991-1994-cü illər) də Fransa dövləti və hökumətinin qərəzli münasibəti ilə, ədalətsizliyi ilə üzləşib.

Öz azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda mücadilə aparan Azərbaycan kimi bir ölkəyə olan bu haqsızlıq həm də demokratiyaya qarşı, əslində, bir haqsızlıqdır və bu, nə beynəlxalq hüquqa, nə də elementar məntiqə sığır. Bununla siz, ola bilər ki, Fransada yaşayan ermənilərin səsini qazana bilərsiniz, amma Ermənistanı bir daha özünüz üçün qazanmadınız. Azərbaycanı isə itirirsiniz.

Bu hərəkət Fransanı, özünə yaxın bilən hər bir azərbaycanlı üçün ağır mənəvi zərbədir. Amma biz azərbaycanlılar dünyadakı və Fransadakı dostlarımızın sayəsində bu zərbəni dəf edib öz siyasi müstəqilliyimizi və ərazi bütövlüyümüzü hökmən qoruyacağıq.

Uzun illərdir fransız dili, ədəbiyyatı və mədəniyyətini tədris, eləcə də təbliğ edən yaşlı və gənc müəllimlər olaraq düşünürük ki, bu ədalətsiz qərar fransız dilinin Azərbaycanda gələcək nəsillər tərəfindən öyrənilməsinə ciddi zərbə vurur. Bu qərarla siz multikulturalizm dəyərləri ilə yaşayan bir ölkədən - Azərbaycandan üz döndərərək, totalitar, monoetnik bir dövlət olan işğalçı Ermənistana öz dəstəyinizi göstərmiş olursunuz. Sizə tövsiyə edirik ki, məşhur fransız yazıçısı Aleksandr Dümanın (ata) "Qafqaza səyahət" adlı kitabını yenidən oxuyaraq, Azərbaycanın tolerant dəyərləri ilə daha dərindən tanış olasınız.

**Azərbaycanın işi haqq işidir. Bu haqq işimizdə nə Fransa, nə də digər ölkələr bizə münsif ola bilməz. Hansı qərarlar hansı ölkələrdə çıxırsa çıxsın, yenə də və əbədi olaraq Qarabağ Azərbaycandır!**

Azərbaycan Dillər Universitetinin fransız dili müəllimləri və Azərbaycanda Fransız Dili Müəllimləri Assosiasiyasının üzvləri adından.

## Dünya kubokunu Xorvatiya qazanacaq

Bu komanda finalda Braziliya və ya Belçika ilə qarşılaşacaq

(Əvvəli səh: 8-də)



*Məşhur adam qulançarla dəqiq proqnozlar verir*

**Jemima Pakinqton bir neçə ay əvvəl İngiltərə kraliçası II. Elizabetin öləcəyini proqnozlaşdırdı və onun iddiasından qısa müddət sonra kraliça öldü.**

Üstəlik, Pakinqtonun Şahzadə Filipin ölümündən tutmuş Şahzadə Harri və Meqan Marklın əvvəlki illərdə tacdan getməsinə qədər bütün vacib məsələləri proqnozlaşdıra bilib.

65 yaşlı Pakinqton son aylarda qulançarı havaya atdı və qulançarın qırıq bir tac meydana gətirərək yerə düşdüyünü gördü. Qarşısında duran fiqurdan tacda xırıltının olacağını irəli sürən kahin bu cümləni işlətdi: "Qulançarın bəziləri qırıq tac şəklini aldı və bu mənə göstərdi ki, böyük hüzn olacaq. Kraliçanın Liz Trassı qarşıladığını əks etdirən fotoları görəndə necə də zəiflədim. Anladım ki, kraliçanın başıdır və dostuma "Artıq uzun sürməyəcək" dedim. Başa düşdüm ki, o da öləcək. Mən Kraliçanın böyük fanatıyam və onun ölməsinə çox təəssüf edirəm".

Kraliçanın ölümündən sonra taxta çıxan Kral III Çarlzın taxtda uzun müddət qala bilməyəcəyini iddia edən Pakinqton deyir ki, Şahzadə Uilyamın 12 ay ərzində kral elan edilməsi olduqca mümkün görünür. Pakinqtona görə, onun qulançar proqnozu, şübhəsiz ki, yeni bir dəyişikliyin yaxınlaşdığını göstərir.

Qlobal miqyasda hadisələrin proqnozlaşdırılmasına xüsusi diqqət yetirən Pakinqton hazırda davam edən Qətər 2022 Dünya Kuboku ilə bağlı da proqnoz verib. "Mystic Veg"in məlumatına görə, İngiltərə dünya çempionatının 1/4 finalında mübarizədən kənarlaşdırılacaq. Belə kəskin təxmin edən Pakinqtondan nə gördüyünü soruşublar və o, belə cavab verib: "İngiltərənin yalnız 1/4 finala yüksəldiyini görürəm, daha irəli gedə bilməzlər. Xorvatiya kuboku qazanacaq. Mən də B hərfi görürəm, bu da Xorvatiyanın finalda Braziliya və ya Belçika ilə qarşılaşacağı deməkdir".

**Turan**

**Elan**

İsmayılova Meyeke Rafiq qızına Qarabağ rayon, Sahil qəsəbəsi, Emin Quliyev ev 57, mən.64 ünvanına aid texniki pasport itdiyi üçün etibarsız sayılır.

Əliyeva Nüşabə Ayaz qızına Bakı şəh., Nizami rayonu, Rüstəm Rüstəmov 72 A-da yerləşən Park City MMC-də blok C, mərtəbə 12, mən. 211-ə aid evin sənədi itdiyi üçün etibarsız sayılır.

Axundova Nuranə İlham qızına Bakı şəh., Yasamal rayonu, Muxtarov, L.Tolstoy, S.Tağızadə və Zərgərpalan küç. kəsişməsində yerləşən "Abidə" MTK-ya məxsus yaşayış kompleksində 3-cü blok, 10-cu mərtəbə, 4 otaqlı, sahəsi 170 kv.m. olan 134 saylı mənzilin müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

# Təmir əladır, küçələr abadlaşır

## Amma dərd odur ki, bir müddət sonra yenə problemlər üzə çıxır

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Bakının Xətai rayonunun Cavanşir küçəsini əsaslı təmir edib. Bu barədə Agentlik məlumat yayıb. Məlumata görə, 1 400 metr uzunluğa malik sözügedən küçənin təmir işləri çərçivəsində küçəboyu frezlənmə işləri aparılıb, mövcud piyada səkiləri bərpa olunub, zəruri yerlərdə yeniləri inşa edilib.**

Küçə boyu 2 800 p/m yeni bordür, 762 p/m yeni səki daşı düzülüb. Daha sonra küçəyə iki qat olmaqla yeni asfalt-beton örtüyü döşənib, kommunikasiya xətlərinə aid quyu qapaqları layihə hündürlüyünə qaldırılıb və zəruri olan yerlərdə yeni yağış barmaqlıqları quraşdırılıb. Sonuncu mərhələdə küçədə avtonəqliyyat vasitələrinin normal hərəkətinin təşkili üçün üfüqi nişanlanma xətlərinin çəkilişi, zəruri yol nişanlarının quraşdırılması işləri aparılıb. Xətai rayonu üzrə ümumi uzunluğu 13 kilometrdən çox olan küçələrin təmiri bu ilin sonuna qədər yekunlaşdırılacaq. Ötən il rayon ərazisində 14,2 kilometr uzunluğa malik küçədə təmir işləri aparılıb.

Əlbəttə, küçələrin əsaslı təmiri, asfalt örtüyünün yenilənməsi alqışlanası haldır. Lakin məsələ həm də bundadır ki, əsaslı təmir edilən küçələrdə bir müddət sonra yenə problemlər üzə çıxır. Yolun hansısa hissəsində çökmə əmələ gəlir, çuxur yaranır, asfalt örtüyü də xarab olur. Belə vəziyyət çox zaman yolun hansısa hissəsində kanalizasiya və ya su borusunun deşilməsi, axıtması nəticəsində yaranır. Yaxud da hansısa hissədə qaz boruları, digər kommunikasiya xətləri yenilənir, yol qazılır, qazılmış hissədə işlər tamamlandıqdan sonra isə yolun həmin hissəsi çökək vəziyyətdə qalır. Yağış suları da qısa zamanda asfalt örtüyünü "yuyub aparır".



*"Dövlətin vəsaiti havaya sovrulmasın deyə təmir işləri mərkəzləşdirilmiş qaydada aparılmalıdır"*

**Məsələ ilə bağlı "Şərq"ə danışan Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri Vüqar Tofiqli qeyd etdi ki, təmir edilmiş yollar qısa müddət ərzində xarab olmasın, işlək vəziyyətdə qalsın deyə, təmir işləri mərkəzləşdirilmiş qaydada aparılmalıdır:**

- Dövlət büdcəsindən yol tikintisinə külli miqdarda vəsait ayrılır. Əlaqədar qurum bu işi görüb başa çatdırır. Bir müddət sonra isə yolda təkrar qazıntı işlərinə başlanılır. Məlum olur ki, qaz xətti çəkilir, yeraltı naqillər dəyişdirilir, su xətti yenilənir və sair. Bu işlər əvvəlcədən planlaşdırılmalıdır ki, dövlətin vəsaiti havaya sovrulmasın. Bir küçə 2-3 dəfə təmir edilməsin. Bunun üçün də işlər planlı şəkildə, mərkəzləşmiş qaydada aparılmalıdır. Küçənin təmiri başlamazdan əvvəl ərazidən keçən su xətləri, qaz borusu, digər kommunikasiya xətlərinin sazlığı yoxlanmalı, lazım olan yerdə xətlər dəyişdirilməli, qazıntı, yenilənmə işləri başa çatdıqdan sonra yolun təmirinə, asfalt örtüyünün yenilənməsinə, yol nişanlarının təyininə başlanılmalıdır. Yollarda plansız təmir işləri aparıldıqda infrastruktur zədələnir, onun bərpası üçün yenidən yolun qazılması lazım gəlir, yol da xarab olur, asfalt örtüyü də korlanır. Yol nişanları, keçidlər də qeyri-işlək vəziyyətə düşür. Baxırsan, yolda təmir gedir, amma köhnə yol nişanları olduğu kimi qalıb. Bu, sürücüləri çaşdırır. Ona görə də təmir işlərinə başlamazdan əvvəl, ərazideki infrastrukturun işlək olub-olmaması yoxlanmalı, qazıntı işləri lazımdırsa görülməli, sonra yolun təmirinə başlanmalıdır. Hər inzibati rayonun illik büdcəsi var. Bu büdcəyə uyğun plan tərtib edilməli, vacib işlər müəyyənləşməli və işlərin icrası plana uyğun aparılmalıdır.

**Məlahət Rzayeva**

## Düyü ucuzlaşacaq

Pakistandan gətirilən düyü gömrük rüsumundan azad edilib



**"Pakistandan düyü idxalının gömrük rüsumundan azad edilməsi daxili istehlak bazarında qiymət artımının qarşısını almaq məqsədi daşıyır".**

Bunu "Şərq"ə iqtisadçı Pərviz Heydərov deyib. O, diqqətə çatdırıb ki, dünyada olduğu kimi ölkəmizdə də inflyasiya və bahalaşma prosesinin davam etdiyi məlumdur: "Ümumiyyətlə, bu il ərzində bahalaşma tendensiyası səngimədi, əksinə, hər keçən müddətdə bir az da sürətlə, yüksələn xətt üzrə inkişaf etdi və edir.

Bahalaşma, inflyasiya prosesində kənd təsərrüfatı və qida məhsullarının qiymətləri əsas yer tutur.

Ona görə də mənfi fəsadları aradan qaldırmaq üçün ölkəyə idxal olunan bəzi ərzaq məhsulları üzrə gömrük rüsumları və vergilərin azaldılması, həmçinin yerli məhsulların bazarlara çıxışı, yaxud başqa sözlə, reallaşdırılması imkanları maksimum asanlaşdırılır.

Ölkəmizə düyü idxalının əsas hissəsi Pakistanın üzərinə düşür. Gömrük rüsumundan azad olunması ölkədə sözügedən məhsul növünün bahalaşmasının qarşısını alacaq".

**Sücayət Mehti**

## Pandemiya arxada qaldı

Turizm sektoru təxminən 50 faiz bərpa olunub

**Pandemiyadan sonra turizm sektoru təxminən 50 faiz bərpa olunub. Yaxın iki il ərzində tam bərpa olunmasını gözləyirik. Hesab edirik ki, 2019-cu ilin rekord göstəricilərinə yaxınlaşacağıq.**



Bunu Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev noyabrın 24-də "Məsləhət xidmətləri vasitəsilə aqro-turizm, aqro-biznes sahibkarlığın və ərzaq məhsullarının istehsalının təşviqi və yeni dəyər zəncirlərinin yaradılması və inkişafı" layihəsi üzrə Bakı konfransı çərçivəsində jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, turizm tez bərpa olunan bir sahədir. "Biz coğrafiyamızı genişləndirmişik, turizm üçün yeni bazarlar açırıq. Hesab edirik ki, turizm bərpa olunacaq və müsbət dinamika davam edəcək.

Ənənəvi ölkələr var ki, Azərbaycana daha çox həmin ölkələrdən xarici vətəndaşlar səfər edir. Bu ilin qış mövsümü üçün marketinq işlərini daha çox MDB, Yaxın Şərq və Avropa ölkələrində aparmışıq.

Bilirsiniz ki, qarşıdan yeni il bayramı gəlir. Azərbaycanda üç qış turizm komleksi var, Şahdağ, Tufandağ və Naxçıvanda olan Ağbulaq kompelksi. Biz düşünürük ki, yeni açdığmz bazarlardan bizə turistlər gələcəklər" - deyə F.Nağıyev əlavə edib.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3352



## Rusiyada ölümcül siçan qızdırması yayıldı

**Başqırdıstanın Serafimova qəsəbəsində insanlar arasında bu vaxta qədər rast gəlinməyən siçan qızdırması aşkarlanıb.**

Bakupost.az xəbər verir ki, yerli federal xidmətin məlumatına görə, noyabrın əvvəlindən arasında uşaqın da olduğu 14 nəfərə ilkin diaqnoz qoyulub.

Böyrək sindromlu hemorragik qızdırma alovlanması artıq 31 nəfərdə aşkarlanıb. "Hazırda epidemioloji araşdırma aparılır, Başqırdıstan hökuməti tərəfindən epidemiya əleyhinə tədbirlər görülür, məktəblər, təhsil müəssisələrində nəzarət gücləndirilib. Yoluxanlar ailəlikcə təcrid olunub", - deyə bildirilir. Xəstəlik kəskin virus mənşəlidir, böyrəkləri zədələyir və qanaxma meyillidir.

İnkubasiya dövrü 45 günə kimi çəkə bilir. İlk əlamətləri kəskin qızdırma, ürəkbulanma, qusma, titrətmə, yuxu pozulması, tormozlanmadır. Ölüm faizi yüksəkdir.

## 26 yaşı var...

### Dünyanın ən yaşlı pişiyi eşitmə və görmə problemi yaşayır



**İngiltərədə yaşayan Flossi "ən yaşlı pişik" titulunu alıb. Pişiyin nə az, nə çox, 26 yaşı var...**

Mütəxəssislər deyirlər ki, pişiklərdə 26 yaş insanlarda 120 yaşa bərabərdir. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, qəhvəyi və qara rəngli dişi pişik Flossi, yaşına görə eşitmə və görmə problemi yaşayır. Sahibi qoca olmasına baxmayaraq, Flossinin hələ də oynaq və maraqlı pişik olduğunu deyir.

Flossi "yaşayan ən yaşlı pişik" adı ilə Ginnesin Rekordlar Kitabına düşə bilib. İndiyə qədər qeydə alınan ən yaşlı pişik 38 yaşlı "Creme Puff" pişiyi olub. O, 2005-ci ildə vəfat edib.

**Turan**

## "Qırmızı xalı"nı bəzədi

### Bella Hadid dünyanın ən tərz qadını seçilib



**Məşhur model Bella Hadidin "qırmızı xalı"dakı ən gözəl görüntüləri yayılıb. Görüntüləri yayan "British GQ" jurnalı Bella Hadidi dünyanın ən şıq, ən tərz qadını elan edib. "NTV,com.tr"də yer alan məlumatda bildirilir ki, 26 yaşlı model hazırda dünya podiumlarından ən çox sifariş alan və görüntüləri ən çox yayılan qadındır. Bella Hadid podiumların vazkeçilməzidir, məşhur modellər arasında ən çox podiumlara çıxan da odur. Bununla yanaşı, B.Hadid məşhur markaların reklam simasına da çevrilib. B.Hadidin "qırmızı xalı"lar üzərində görüntüləri isə ən çox baxılır və bəyənmə sayı toplayır. B.Hadidin müxtəlif geyimlərdə - qadın, kişi, küçə, istirahət, iş və gündəlik geyim tərzlərinin fotolarını dərc edən moda jurnalı "Bella Hadid hər nə geyinirsə, bədəninə yaraşdırır", - yazaraq modelin bütün növ geyimlərdə üstün tərz nümayiş etdirdiyinə diqqət çəkib.**

**Məlahət**

## CeyLo hər şeyi sildi, qaraya büründü



**Müğənni Cennifer Lopez sosial şəbəkə hesablarındakı son atdığı addımlarla diqqət çəkib.**

**Axşam.az xəbər verir ki, ifaçı hesablarında olan bütün şəkilləri silib və paylaşım etməyi dayandırıb. Bundan başqa CeyLo profil şəkillərini qara fonla dəyişib.**

**Müğənni məsələ ilə bağlı hər hansı açıqlama verməsə də, bu addımı yeni layihəsi və ya həyat yoldaşı, aktyor Ben Affleklə əlaqəli ola biləcəyi iddia edilib.**

## Türkiyəli aktrisa donuz qripinə yoluxdu



**Türkiyəli aktrisa Özge Özber 10 gündür donuz qripi ilə mübarizə aparır.**

**Bakupost.az xəbər verir ki, əvvəlcə kovid olduğunu düşünən və 40 dərəcə qızdırma ilə xəstəxanaya qaldırılan aktrisanın analizi onun donuz qripi tutduğunu bildirib.**

**"Təəssüf ki, ailəlikcə donuz qripi olduq. 40 dərəcənin üzərində qorxulu bir qızdırma idi. Bir xeyli mübarizə apardıq, artıq sağalırıq".**



# Dünya kubokunu Xorvatiya qazanacaq

### Bu komanda finalda Braziliya və ya Belçika ilə qarşılaşacaq



**Mistik qabiliyyətləri ilə gələcək hadisələri proqnozlaşdırdığını iddia edən və özünü dünyanın yeganə "quşqonmazı" (qulançar gözətçisi) olaraq elan edən britaniyalı Jemima Pakinqton Kraliça II Elizabetin ölümündən tutmuş Qətər 2022-ci il Dünya Kubokuna qədər bir çox proqnozlar verməkdə davam edir.**

*Onun proqnozları arasında ən diqqət çəkən məsələlərdən biri yeni yüksəlişə nail olan Kral III Çarlzdır. Söhbət Çarlzın taleyindən gedir. Bəs, Jemima Pakinqton öz təxminlərini necə edir?*

Gələcəyi görmək iddiası özlüyündə mübahisəli məsələdir. Ancaq burada ən diqqət çəkən şey, gələcəyi görmək üçün istifadə edilən kristal kürə və tarot kartları kimi üsullara yenisinin əlavə edilməsidir: Qulançar! Jemima Pakinqton əlindəki qulançar ilə təxminlər edir və bu da uğursuz alınmır. Əvvəl İngiltərədə, sonra isə dünyada "Mystic Veg" adı ilə məşhurlaşan Pakinqton, qulançarları havaya atır və düşdüyü yerə görə gələcəklə bağlı proqnozlar verir.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Britaniya mətbuatında proqnozları geniş şəkildə səslənən Pakinqton ilə müsahibədə ondan qeyri-adi qulançar metodunun gələcəyi necə göstərdiyi və bu istedadı necə kəşf etdiyi soruşulub.

### *Məşhur adam qulançarla dəqiq proqnozlar verir*



Qulançarla pıçıldayan falçı belə cavab verib: "Həmişə belə istedadlarım olub. Bəlkə də çay yarpaqlarından fal deyən bibimdən keçib, bilmirəm. Uşaq vaxtı tərəvəzlərdən nizə düzəldirdim, yıxılanda da yerdə hər şeyi görürdüm, amma gördüklərimi başa düşə bilmirdim. Ailəm hər zaman bundan xəbərdar idi, amma məni nə ruhlandırdılar, nə də ruhdan saldılar. Sadəcə, öz yolumu tapmağa icazə verdilər. Özümü çox şanslı hiss edirəm. Bu unikal qabiliyyət mənə heyrətamiz insanlarla görüşməyimə imkan verdi. Proqnozlarımın çoxu doğru çıxır, lakin bəzən bəzi proqnozlarım yanlış da çıxa bilər".

*(Davamı səh: 7-də)*

**Turan**





# Gərginliyi rahatlığa çevirmək mümkündür

### Duyğularınızı nəzarət altına almağın 3 sadə üsulu var



**Gündəlik həyatda baş verənlər demək olar hər kəsi müəyyən mənada narahat edir. Adi məişət problemlərindən tutmuş, daha miqyaslı problemlərədək, tez-tez narahat olur, qayğılanır və bu səbəbdən də bəzən stresə düşür, psixoloji gərginlik yaşayırıq. Mütəxəssislər isə sübut edir ki, dezavantajı, avantaja - gərginliyi mənəvi rahatlığa çevirmək mümkündür.**

Yetər ki, buna istək olsun və özünə güvənəsən. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, dünya miqyasında hər il 100 milyonlarla insan psixoloji sarsıntı keçirir. Az və ya çox dərəcədə. "Google" nin araşdırmasına görə, narahatlıq kəlməsinin axtarış sayı 2004-cü ildən bəri 300 dəfə artıb. Psixoloji gərginlik keçirən insanlar bu mərhələni keçmək üçün yollar arayır və "Google"də axtarış verirlər. Araşdırmalara görə, ABŞ əhalisinin 31 faizi həyatları boyunca ən azı 1 dəfə psixoloji gərginlik keçirir. Bu rahatsızlıqlar arasında ən çox rast gəlinəni psixoloji pozuntular, panikaya düşmək və sosial rahatsızlıqlardır. BBC-nin xəbərinə görə, doktor Treysi Dennis-Tivar, yaşam keyfiyyətini aşağı salan və insan psixologiyasını yoran rahatsızlığı avantaja - üstünlüyə çevirmənin bir neçə üsulunu təklif edir. Mütəxəssis "Future Tense" adlı əsərində rahatsızlıqdan qurtulmaq yollarını qeyd edib. Mütəxəssis "istəsəniz, narahatlığı cəmi 3 addımla rahatlığa çevirə bilərsiniz" söyləyərək belə məsləhət verir: "qayğı pozuqluğu əslində diqqətimizin artmasına səbəb olur. Narahatlıq keçirən insanlar ətrafdakı hadisələrə daha diqqətlə yanaşır, çıxış yolu tapmaq üçün. Məhz bunu avantaja çevirə bilərsiniz. Əsas məsələ, doğru çıxış yolu tapmaqdır. Buna isə hadisələri düzgün təhlil etməklə nail olmaq mümkündür. Sizə narahatlıq yaşadan hadisələr arasında yararlı məlumatları toplayın. Bu sizə qarşınıza çıxmış problemin həllində kömək edəcək. Əmələ gəlmiş qayğını motivasiya olaraq istifadə edin. Beləcə, sizə ağırlıq gətirən hisslərdən xilas olub, duyğularınızı nəzarət altına ala biləcəksiniz".

**Məlahət**

## Sutkada 32 min yoluxma

### Çində kovid nəzarətdən çıxır



**Çin hökuməti ölkədə koronavirusa yoluxma hallarının sayının artması ilə bağlı tarixi rekorda imza atıb.**

"Medicina" xəbər verir ki, Gigiyena və Sağlamlıq üzrə Dövlət Komitəsinin açıqladığı məlumatlara görə, son sutka ərzində həkimlər 31 656 yoluxma halı aşkar ediblər.

Bundan əvvəl Çində yoluxma hallarının maksimum artımı aprelin 14-də qeydə alınıb - 29 411 hal. Departamentin rəsmi açıqlamasından məlum olur ki, son sutka ərzində qeydə alınan yoluxanların 87%-i asimptomatik daşıyıcıdır.

Noyabrın 23-də Çində daha bir nəfər COVID-19-dan dünyasını dəyişib və bununla da ölkədə koronavirusdan ölənlərin ümumi sayı 5 232 nəfərə çatıb.

Son günlər Çində koronavirusun yayılması nəzərəçarpacaq dərəcədə sürətlənib.

Çin səlahiyyətliləri tərəfindən gündəlik dərc edilən hesabatlara görə, hökumətin və həkimlərin COVID-19-a qarşı "sıfır dözümlülük" siyasətinin həyata keçirilməsində əldə etdikləri böyük təcrübəyə baxmayaraq, ölkədə virusa nəzarət etmək getdikcə çətinləşir.

## Estoniyada 300-dən çox sovet abidəsi söküləcək




**Estoniyada hökumətin qərarı ilə təşkil olunan xüsusi işçi qrupunun hazırladığı siyahıdakı sovet abidələrinin əksəriyyəti söküləcək.**

Azərtac xəbər verir ki, işçi qrupunun rəhbəri Asko Kivinuk bunu ERR teleradio portalına deyib. "Dövlət dəftərxanasının işçi qrupunun hazırladığı siyahıdakı sovet abidələri qısa zaman ərzində söküləcək", - deyə o bildirib.

Asko Kivinuk siyahıda olan 322 abidənin 133-nün hərbi qəbiristanlıqlarda quraşdırıldığını, onların dərhal söküləcəyini və məzarlardakı sovet əsgərlərinin yenidən dəfn olunacağını bildirib. İşçi qrupunun rəhbəri, həmçinin abidələrin əksəriyyətinin dağıdılacağını, bir hissəsinin isə muzeylərə göndəriləcəyini deyib.

İşçi qrupu ölkə hökumətinin "İşğal rəmzləri olan abidələrin Estoniyanın ictimai məkanından köçürülməsi haqqında" 4 avqust tarixli qərarına əsasən yaradılıb.